Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

3
OKTYABR
2019-cu il

№ 176 (4074)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# BANKLAR PREZİDENTİN KURSUNA QARŞI - ÖLKƏ YENİ VAXTI ÖTMÜŞ PROBLEMLİ KREDİTLƏR BÖHRANINA HAZIRLANIR...

■ səh. 11 ■

Siyahıyaalmanın Prezident Əliyevdən başlayan startı - əhalinin fəallığını təmin edəcək faktor... ■ səh. 3 ■

Jurnalistlərin ikinci binasının sakinləri də "kupçalarını" almağa başladılar ■ səh. 2 ■

Belarus prezidenti Ermənistanda da Azərbaycanın mənafeyini müdafiə etdi ■ səh. 7 ■

Ermənistan üçün Qarabağ təcavüzündən başlayan zəncir: iqtisadi çöküş - ordunun dağılması - əhalinin azalması - ölkənin boşalması... ■ səh. 9 ■

Putin "KTMT-də müşahidəçilik" bəyanatı ilə Ermənistanın bütün ümidlərini kəsdi... ■ səh. 5 ■

Ermənistanda Tələt Paşanın qatilinin heykəli Türkiyədə böyük etirazlar doğurub ■ səh. 10 ■

Bankların "dollar üsyanı" - 93-cü ilə qədərki dollar əskinasları niyə qəbul edilmir... ■ səh. 11 ■

Ali məktəb dərslikləri ilə bağlı ağır problem - bahadır, internetdə yerləşdirilməsinə imkan verilmir, tələbələr çarəsizlikdə... ■ səh. 14 ■



■ səh. 6 ■

## Avrasiya Birliyinin İrəvan Sammiti - azad ticarət sazişləri fonunda Paşinyanın böyük siyasi fiaskosu...



## 26 il əvvəl Heydər Əliyevin ilk prezident seçildiyi gün siyasi opponentlərinin gözü ilə...

■ səh. 3 ■

## Azərbaycanın qabaqlayıcı işləri Ermənistanın Fars körfəzi - Qara dəniz nəqliyyat dəhlizi niyyətini də puça çıxardı...

■ səh. 8 ■



## Azərbaycanda Eldar Həsənovun əli ilə saxta «Qarabağ əlilləri» oyunu...

■ səh. 4 ■

■ səh. 5 ■

### Putin İrəvanda məhbus Köçəryanın ailəsi ilə görüşün timsalında kimə və nə demək istədi...



■ səh. 4 ■

### Krımdakı məşhur "Qobustan" radiosunun baş redaktoru olan həmyerlimiz Naxçıvanda ağır xəstədir



■ səh. 13 ■

### Dövlət Əməyin Mühafizəsi Fondu yaradıldı - sonra nə baş verəcək...



■ səh. 12 ■

### Azərbaycana bal idxalını dayandırmaq üçün ciddi əsaslar yetişib



■ səh. 13 ■

### Bakının naviqator xəritəsində ciddi problemlər aşkarlanıb



## Cəbhədə düşmənin diversiya qruplarının təxribatının qarşısı alındı

**2019-cu ilin 1 oktyabr tarixində saat 22:00 radələrində Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədindəki təmas xəttində Ermənistan Silahlı Qüvvələrinin döyüş mövqelərindən ərazimizə doğru təxribat-diversiya qruplarının hərəkəti döyüş mövqelərimizdə xidmət aparan sərhəd naryadları tərəfindən aşkarlanıb və qarşısı alınıb.**



Dövlət Sərhəd Xidmətindən baki-xeber.com-a verilən məlumata görə, həmin tarixdə sərhəd döyüş məntəqələrimiz Ermənistan Respublikasının Silahlı Qüvvələrinin bölmələri tərəfindən müxtəlif istiqamətlərdən iriçaplı silahlardan dəfələrlə intensiv atəşə tutulub.

Bütün hallarda bölmələrimizə qarşı atəşin açıldığı Ermənistan Silahlı Qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

## MSK Rəfael Cəbrayılovun "kitabını bağladı"

**Mərkəzi Seçki Komissiyası (MSK) deputat mandatından imtina edən Rəfael Cəbrayılovun müraciətinə baxıb.**



"Trend"in məlumatına görə, 2 oktyabr tarixində keçirilən iclasda qeyd edilib ki, Rafael Cəbrayılov mandatından imtina etməklə bağlı parlamentə müraciət edib. Milli Məclis isə onun deputat səlahiyyətlərinə xitam verilməsi ilə əlaqədar MSK-ya müraciət ünvanlayıb.

Müraciət MSK üzvləri tərəfindən səsə qoyularaq qəbul edilib.

## Ədliyyə Nazirliyi Taleh Bağırzadənin həyat yoldaşı barədə cinayət işinə xitam verildiyini açıqladı

**Məhkum Taleh Bağırzadənin həyat yoldaşı Leyla İsmayılzadənin cinayət məsuliyyətinə cəlb olunması barədə məlumatlarla bağlı Ədliyyə Nazirliyi açıqlama yayıb.**



Ədliyyə Nazirliyi Mətbuat Xidmətindən baki-xeber.com-a verilən məlumata görə, L.İsmayılzadə övladları ilə birgə həyat yoldaşı məhkum T.Bağırzadə ilə görüşlərinin birində cəzaçəkmə müəssisələrində istifadəsi qadağan olunmuş mobil telefonu qanunsuz olaraq ərinə ötürməyə cəhd edib.

Nazirlik bildirir ki, faktla bağlı ibtidai istintaq aparılaraq, onun əməlində cinayət tərkibinin olduğu müəyyən edilib, buna baxmayaraq, bu əməlin böyük ictimai təhlükə törətmədiyi, himayəsində dörd azyaşlı uşağının olması, mövcud ailə vəziyyəti nəzərə alınaraq səmimi peşman olduğu halda, barəsində cinayət təqibinə xitam verilməsinin mümkünlüyü nəzərdən keçirilib: "Bununla əlaqədar istintaq prosedurlarına uyğun olaraq L.İsmayılzadənin törətdiyi əmələ münasibət bildirməsi və iş üzrə prosessual qərar qəbul olunması üçün ona iki vəkilinin iştirakı ilə Cinayət Məcəlləsinin 29, 317-1.1-ci (cəzaçəkmə müəssisəsində saxlanılan şəxsə qadağan olunmuş əşyanın ötürülməsinə cəhd) maddəsi ilə ittiham elan olunub.

L.İsmayılzadə törətdiyi əməldən səmimi peşmanlığını bildirərək, təqsirindən keçilməsini xahiş edib və bu əsaslarla istintaq tərəfindən prosessual qaydalara uyğun şəkildə onun barəsində humanist qərar qəbul olunaraq cinayət təqibinə Baş Prokurorluğun razılığı ilə xitam verilib.

Bununla əlaqədar bildirilir ki, L.İsmayılzadənin guya məhkəmə məsuliyyətinə verilməsi barədə mediada və sosial şəbəkələrdə yayılmış məlumatlar həqiqətə uyğun deyil və sensasiya xatirinə belə uydurma məlumatları yayanlar ictimaiyyəti çaşdırmaq, dövlət orqanlarının qanuni və ədalətli fəaliyyətinə kölgə salmaq məqsədi güdürlər".

# Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri başlayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvətilə Rusiya Federasiyasına işgüzar səfərə gəlib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən baki-xeber.com-a məlumat verilib. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Krasnodar vilayətinin qubernator müavini Anatoli Voronovski, Şoçi şəhərinin meri Aleksey Kopayqorodski və digər rəsmi şəxslər qarşılayıblar.



# Jurnalistlərin ikinci binasının sakinləri də "kupçalarını" almağa başladılar





**Dünəndən Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən ölkə başçısı cənab İlham Əliyevin 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada səyyar qeydiyyat xidmətinin göstərilməsinə başlanıb.**

Baki-xeber.com xəbər verir ki, jurnalistlərin mənzillərinə dair elektron çıxarışın hazırlanması üçün ilkin sənədlər toplanır. Tədbir Bakı, Yeni Salyan yolunda yerləşən, jurnalistlərə verilən ikinci binanın həyətində baş tutur.

# Azərbaycan-İran sərhədində insident... Sərhədçilərimizə atəş açan silahlı sərhəd pozucuları məhv edildi

**Oktyabrın 2-də saat 00:13-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun Əmirzeyitli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən 3 nəfər naməlum şəxsin dövlət sərhədini pozması müşahidə olunub.**



Bu barədə baki-xeber.com-a Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən məlumat verilib.

Qeyd edilir ki, sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi tam qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək sərhəd pozucuları təqib edilib və havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayaraq, sərhəd naryadına qarşı odlu silahdan atəş açıb sərhədçilərin həyatına qəsd ediblər. Bir sərhəd pozucusu üzərindəki çantanı ataraq İran istiqamətində qaçmağa, digər 2 sərhəd pozucusu isə hadisə yerindən digər istiqamətdə qaçmağa cəhd göstərib.

"Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq sərhəd naryadı tərəfindən silah tətbiq olunub və hər 3 sərhəd pozucusu aldığı güllə yaralarından hadisə yerində ölüb.

Zərərsizləşdirilmiş sərhəd pozucularına və əraziyə baxış zamanı 1 ədəd qara çantada ümumi çəkisi təxminən 15 kq olan müxtəlif növlü narkotik vasitələr, 1 ədəd lülləsi kəsilmiş tüfəng, patronlar və gilizlər aşkar olunub.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı general-leytenant Əsgər Xəlilov əraziyə ezam edilib, hadisə yerinə baxış keçirilib, sərhəd pozucularının şəxsiyyətinin müəyyən edilməsinə və əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar verib.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının və Füzuli Hərbi Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilib.

# 26 il əvvəl Heydər Əliyevin ilk prezident seçildiyi gün siyasi opponentlərinin gözü ilə...

**Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri də oktyabrın 3-nə təsadüf edir. Həmin gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim etdi.**



***Fazil Mustafa:*** *"Həmin vaxt Heydər Əliyevin prezident seçilməsi Azərbaycanı daha ciddi təlatümlərdən xilas etdi"*

***Əliməmməd Nuriyev:*** *"Heydər Əliyev miqyas etibarilə çox nəhəng dövlət xadimi olub"*

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ulu Öndər 98.84 faiz səslə Azərbaycan Prezidenti seçildi.

Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi liderə ehtiyacı var.

Hələ 1969-1982-ci illərdə - Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan üçün gördüyü misilsiz işlər xalqımız tərəfindən unudulmamışdı. Eyni zamanda, 1990-cı ildə 20 Yanvar faciəsinin səhəri günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi dahi liderə olan inamı daha da artırmışdı.

Heydər Əliyevin Prezident seçildiyi həmin günə vaxtilə onunla siyasi opponent olmuş şəxslərin baxışı ilə qiymət vermək istədik. Həmin dövrdə Heydər Əliyevə müxalif cəbhədə dayanmış millət vəkili Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məlum hadisə yaxın tariximizin gərgin dönəminə təsadüf edir: "Xüsusilə də həmin dönəmdə ölkədə böyük qarışıqlıq vardı. Ölkəyə rəhbərlik etmək parlamentin sədri kimi Heydər Əliyevə həvalə edilmişdi. Seçkilərin keçirilməsini nəzərdə tutan referendum isə 5 avqustda keçirilmişdi. Həmin referendumda prezidentin səlahiyyətinə xitam verilmişdi. Ona görə də belə bir seçkinin keçirilməsi olduqca zəruri idi. Çünki Azərbaycanın Dağlıq Qarabağ bölgəsində əməliyyatlar keçirilirdi, həm də cənubda qondarma "Talış Muğan" adlı bir qurum elan olunmuşdu. Həmin seçkinin olması və Heydər Əliyevin prezident seçilməsi ölkədə müəyyən dərəcədə bir sabitlik də yaratmış oldu. Hesab edirəm ki, həmin vaxt Heydər Əliyevin prezident seçilməsi Azərbaycanı daha ciddi təlatümlərdən xilas etdi. Çünki hakimiyyət boşluğunun olmasından istifadə edən müəyyən qüvvələr ölkədə böyük problemlər yaradırdılar. Xüsusilə də xaricdən idarə edilən şəbəkələrə Heydər Əliyev öz düşünülmüş, qətiyyətli addımları ilə müəyyən məkrli niyyətlərini həyata keçirməyə imkan vermədi. Çünki hakimiyyət boşluğundan çoxları istifadə etməyə çalışırdı. Həmin seçkilərdən sonra Azərbaycan dövləti tam sabitliyə qovuşa bildi".

Həmin dövrdə Heydər Əliyevə müxalif olanlardan biri, sabiq millət vəkili, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev də hesab edir ki, həmin seçkinin Azərbaycan xalqı, dövləti üçün böyük faydası olub: "Heydər Əliyev miqyas etibarilə çox nəhəng dövlət xadimi olub. Uzun illər rəhbər orqanlarda işləməsi, xüsusilə də keçmiş SSRİ-nin siyasi olimpinin ən yüksəkliklərini fəth etməsi ona böyük siyasi bacarıq, təcrübə qazandırmışdı. Eyni zamanda, Heydər Əliyev Azərbaycanı çox yaxşı tanıyırdı. O xüsusi idarəçi idi. Həmin dövrün şərtləri də onun qayıdışını zəruri edirdi. Çünki ölkədə qiyam baş vermişdi, vətəndaş qarşıdurması vardı. Rəhmətlik Elçibəy böyük siyasət adamını Bakıya dəvət etdi. Heydər Əliyev ilk olaraq parlamentin sədri seçildi, prezident səlahiyyətlərini icra etdi. Həmin vaxt göründü ki, məhz onun ölkəyə rəhbərlik etməsi ən doğru addımlardan biridir. Qanunsuz silahlı birləşmələrin fəaliyyətinə məhz o son qoya bildi. Ölkənin işğalı prosesi dayandırıldı, atəşkəs elan olundu. Yaranmış ağır situasiya belə bir adamın əyalətdə qalmasını şərtləndirə bilməzdi. Biz o zaman müxalifətdəydik. Ancaq buna baxmayaraq, hadisələrə doğru qiymət verməliyik. Əgər bizim partiyanın rəhbəri belə bir addımın atılmasını zəruri saymışdısa, biz heç nə deyə bilməzdik. Bunlar həmin dövrün qanunauyğunluqlarından idi. Hesab edirəm ki, həmin gün Azərbaycan üçün uğurlu olub. Zaman və tarix bunu sübut etdi. Heydər Əliyevin qiymətini də zaman verib. Bunu heç kim dana bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

# Siyahıyaalmanın Prezident Əliyevdən başlayan startı - əhalinin fəallığını təmin edəcək faktor...

**Məlum olduğu kimi, oktyabrın 1-dən Azərbaycanda əhalinin növbəti - müstəqillik dövründə sayca üçüncü dəfə siyahıyaalınması başlayıb. Sözügedən proses oktyabrın 10-na qədər davam edəcək. Siyahıyaalma Prezident İlham Əliyevin 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən icra olunur.**



***Elçin Mirzəbəyli:*** *"Ölkə başçısının bu addımı əhalinin siyahıyaalma prosesində daha fəal iştirak etməsinə təkan verəcək"*

Ölkənin hər bir inzibati ərazi vahidi üzrə təşkilati plan tərtib edilib, yerli icra hakimiyyətləri ilə razılaşdırılaraq Dövlət Statistika Komitəsi tərəfindən təsdiqlənib. Təşkilati planların tərtib edilməsi nəticəsində əhalini siyahıyaalmanın rayonlaşdırılması başa çatdırılıb. Ölkə ərazisi 720 siyahıyaalma, 6777 təlimatçı və 33 min 907 sayıcı məntəqəsinə bölünüb, bu prosesə cəlb ediləcək işçilərə olan tələbat müəyyənləşdirilib.

Siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə alt suallar da daxil olmaqla, 46 sual nəzərdə tutulub. Əvvəlki siyahıyaalmadan fərqli olaraq, sorğu vərəqəsinə ilk dəfə olaraq daxil edilmiş əlilliyə dair suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə imkan yaradacaq.

O da məlumdur ki, siyahıyaalmada iştirak edən ilk şəxs Prezident İlham Əliyev oldu. Belə ki, ölkə başçısı Azərbaycanda həyata keçirilən növbəti siyahıyaalmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırıb. Azərbaycanda əhalini siyahıyaalmanda ilk addımın Prezidentin simasında atılması, prosesdə iştirak edən ilk şəxsin ölkə başçısının olması sözügedən kampaniyada ictimai aktivliyin təmin olunmasına necə təsir edəcək?

*"Hesab edirəm ki, bu, nümunəvi bir addımdır"*

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, ölkə başçısının bu addımı əhalinin siyahıyaalınma prosesində daha fəal iştirak etməsinə təkan verəcək: "Ölkədə əhalini siyahıyaalma, sadəcə, əhalinin sayını müəyyənləşdirəcək bir kampaniya deyil. Bu prosesdə çoxlu sayda sual var ki, dövlətin gələcək inkişaf perspektivləri bu suallara cavabdan asılıdır. Bu həm də ölkə miqyasında keçirilən önəmli bir sorğu prosesidir ki, ölkənin sosial, milli siyasətinin müəyyənləşdirilməsində və digər istiqamətlərdə müstəsna əhəmiyyət kəsb edir. Cənab Prezident həm Azərbaycandakı son 10 ildə baş verən inkişafı dəyərləndirdi, həm də ölkədəki demoqrafik vəziyyətə diqqət çəkdi. Demoqrafik vəziyyətin müsbət olması, əslində, ölkənin sosial-iqtisadi inkişafının bariz nümunəsidir. Digər tərəfdən də düşünürəm ki, əslində, cənab Prezidentin bu kampaniyada iştirakı həm də ölkə vətəndaşlarının prosesdə fəal iştirakı üçün bir çağırışdır. Hesab edirəm ki, bu, nümunəvi bir addımdır".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda Eldar Həsənovun əli ilə saxta "Qarabağ əlilləri" oyunu...

**Bir neçə gündür ölkə gündəmində müzakirə edilən SOCAR-la Qarabağ əlilləri arasında yaşanan insidentlə bağlı maraqlı detallar ortaya çıxıb. Məlum olub ki, sən demə, həmin insidentin qızışdırılmasında maraqlı olan tərəflər, şəxslər, hətta ölkələr var. Eyni zamanda, konkret faktlar əsasında ortaya çıxıb ki, özlərini Qarabağ qazisi kimi qələmə verən şəxslərin böyük əksəriyyəti saxta qazi adını daşıyırmış.**



## *Qabil Hüseynli: "Ola bilsin ki, fikrindən nələrsə keçsin, ancaq belə qarşıdurmanı idarə etməyinə inanmıram"*

Hadisənin detalları barəsində yayılan məlumatlardan belə aydın olur ki, əslində, SOCAR əməkdaşlarının üzərinə hücum çəkənlərin heç də hamısı Qarabağ qaziləri deyil. Artıq mediada məlumat yayılıb ki, əlilləri həmin əraziyə Məmmədəli adlı adam çağırıb və həmin torpaq, faktiki olaraq, bu adamların dedikləri kimi, hansısa Qarabağ əlilinin adına deyil. Bildirilir ki, bu şəxs əvvəllər Mehdi Mehdiyevin sədrlik etdiyi Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvü olub. Sonradan elə M.Mehdiyev onu üzvlükdən çıxarıb, nazirliyə də müraciət edib ki, bu adam Qarabağ uğrunda döyüşlərdə iştirak etməyib. Bu müraciətdən sonra onun əlilliyi ləğv edilib.

Bu arada musavat.com məlumat yayıb ki, "saxta qazilər"in adı ilə Azərbaycanı qarışdırmaq istəyən qüvvələrin kökü Rusiyaya bağlanır: "Rusiyanın bu təxribatını isə Azərbaycana tanınmış bir fiqur ötürür! Bu, əslən Kəlbəcərdən olan, Azərbaycanın sabiq baş prokuroru, hazırda Azərbaycanın Serbiya, Monteneqro və Bosniya-Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənovdur".

Eldar Həsənovun və Rusiyanın bu cür həssas məsələni qızışdırmaqda nə kimi maraqları ola bilər?

Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, bu həssas məsələni böyütməyə ehtiyac yoxdur: "Hesab edirəm ki, buna epizodik bir hal kimi baxmalıyıq. Genişlənməsinə imkan verməməliyik. Hər iki tərəf təmkinli davranmalıdır. Qarabağ əlillərinin arasına girən və ya onlardan öz məqsədləri üçün istifadə edən adamlar mütləq tapılıb məsuliyyətə cəlb olunmalıdırlar. Sizin dediyiniz iddia ilə mən də tanışam. Amma bu cür ciddi məsələdə kiminsə adını hallandırmaq üçün ortaya ciddi fakt qoyulmalıdır. Orada iki versiya səslənir. Rusiya və Eldar Həsənov. Hesab edirəm ki, bu cür işlərdə Rusiya daha fəaldır. Onun dəstxəttinə daha çox oxşayır. Eldar Həsənov bu qədər açıq oyuna getməz. Düzdür, iddiaları var, amma heç də təqdim edilən, daha doğrusu, şişirdilən səviyyədə gücə malik deyil. Ola bilsin ki, fikrindən nələrsə keçsin, ancaq belə qarşıdurmanı idarə etməyinə inanmıram. Rusiya böyük dövlətdir, onun barmağı hər yerdə var. Xüsusilə də Azərbaycanı daha yaxından izləyir, burada marağının olduğunu gizlətmir. Rusiya bu məsələdə sırf nəzarətində olan Abbas Abbasovdan, bəzi milyarderlərdən istifadə edə bilər.

Eldar Həsənov, faktiki olaraq, Azərbaycan dövlətində post tutur. Onunla belə oyuna getməyə heç etibar da etməzlər. Mən Rusiyanın xüsusi xidmət orqanlarının barmağının olduğunu istisna etmirəm. Hesab edirəm ki, bu məsələ ilə bağlı DTX ciddi araşdırma aparmalıdır. Bunun dərinləşməsinə imkan verməK olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

# Krımdakı məşhur "Qobustan" radiosunun baş redaktoru olan həmyerlimiz Naxçıvanda ağır xəstədir

**Hər bir jurnalistin həyatı oxucu, dinləyici və tamaşaçı ilə yaxından bağlıdır. Həyatını, taleyini jurnalistikaya, bu nəcib və çətin sənətə bağlayan insanlar, sözün həqiqi mənasında, fədakarlardır. Ömrünün çox hissəsini jurnalistikaya həsr edən, özü də Vətəndən uzaqlarda fəaliyyət göstərən, Azərbaycanın haqq səsini dünyaya yayan həmkarlarımız daha çox diqqətə layiqdirlər.**



## *Müşfiq Ələsgərli: "Həbib müəllimin vəziyyətini nəzarətə götürməyə, əlimizdən gələn köməyi etməyə çalışacağıq"*

Çünki onlar yad dil içində ana dilimizin təbliğatçıları, yad millət içində xalqımızı yaşadanlar, varlığını təsdiq edənlərdir. Krım vilayətinin Sevastopol şəhər radiosunun "Qobustan" proqramının aparıcısı, tanınmış jurnalist Həbib Əliyev kimi.

1997-ci ilin mart ayından Sevastopol radiosunda yayımlanan Azərbaycandilli "Qobustan" proqramının müəllifi və aparıcısı H.Əliyev bu proqram vasitəsilə Azərbaycan mədəniyyətini, incəsənətini, tarixini, ölkəmizin müasir inkişafını, eləcə də xalqımızın haqq işini yorulmadan təbliğ edib, Qarabağ həqiqətlərini dünyaya yayıb. İndiyə qədər "Qobustan" verilişində 250 proqram efirə gedib və hər proqramda da, ən azından, Azərbaycanın 4 görkəmli ədəbiyyat, mədəniyyət, elm xadimi çıxış edib.

Canını, fəaliyyətini və həyatını Azərbaycana həsr etmiş tanınmış jurnalist H.Əliyev bu gün ağır xəstəlikdən əziyyət çəkir. Hazırda anadan olduğu Naxçıvan MR-in Babək rayonunun Cəhri kəndində ağır vəziyyətdə xəstə yatan H.Əliyevin hər birimizin dəstəyinə ehtiyacı var. H.Əliyev bizimlə söhbətində bildirdi ki, 1 ilə yaxındır ağır vəziyyətə düşüb, bir müddət xəstəxanada müalicə aldıqdan sonra evə buraxılıb. Hazırda boyun nahiyəsində ciddi ağrılar olduğunu deyən H.Əliyevin sözlərinə görə, ağrının şiddətindən gözləri də gün işığına həsrət qalıb, həmçinin, yeriyə bilmir. Özünün ən ağır günlərini yaşayan H.Əliyevin bu vəziyyəti, sözün əsl mənasında, ürəyimizi parçalayır.

Məlum olduğu kimi, indiyə qədər səhhətində ciddi problemlər olan həmkarlarımıza Azərbaycan Mətbuat Şurası (MŞ) ciddi dəstək göstərib, dar ayaqda vəziyyəti ağır olan jurnalistləri tək qoymayıb, onlara həyan olub.

*"Bu cür hallar baş verdikdə, adətən, həmkarlıq kampaniyası keçirilir və eyni zamanda da müvafiq qurumlara müraciət olunur"*

Tanınmış jurnalist H.Əliyevin səhhətində yaranan ağır problemlə bağlı Azərbaycan Mətbuat Şurasına müraciət etdik. MŞ sədrinin müavini, Jurnalist Həmkarlar Təşkilatının rəhbəri Müşfiq Ələsgərli H.Əliyevin xəstəlik xəbərini təəssüflə qarşıladı. O bizimlə söhbətində bildirdi ki, H.Əliyevin səhhəti ilə bağlı yaranan problemin həlli istiqamətində qurum lazımi addımları atacaq və ona dəstək olacaq. "Mən Həbib müəllimin ağır xəstəlikdən əziyyət çəkdiyini indi sizdən eşitdim. Allah kömək olsun. Bilirsiniz ki, Azərbaycan Mətbuat Şurası hər zaman jurnalistlərin yanındadır, mümkün qədər onların problemlərini ictimailəşdirir, lazımi tədbirlərin görülməsi üçün əlaqədar qurumlara müraciət ünvanlayır. Bu cür hallar baş verdikdə, adətən, həmkarlıq kampaniyası keçirilir və eyni zamanda da müvafiq qurumlara müraciət olunur. Müalicəyə ehtiyacı olan jurnalistlərin müalicəsinin nəzarətə götürülməsi ilə bağlı Mətbuat Şurası sədri xəstəxanalara, tibb müəssisələrinə müraciət edir.

Bizə müraciət indi daxil oldu və biz Həbib müəllimin vəziyyətini nəzarətə götürməyə, əlimizdən gələn köməyi etməyə çalışacağıq. Hesab edirəm ki, bu məsələ ilə bağlı müxtəlif təşkilatlara, o cümlədən də yerli qurumlara müraciətlər edilə bilər. Prosedur qaydaları belədir. Çalışacağıq ki, onun səhhətini diqqətdən kənarda qoymayaq" - deyə M.Ələsgərli bildirdi.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, Avrasiya İqtisadi İttifaqının 5-ci zirvə toplantısı İrəvanda başa çatdı. Ermənistanın Baş naziri Nikol Paşinyan bu tədbirdən şəxsi reklamı üçün maksimum istifadə etməyə çalışdı. Hətta bu məqsədlə həmkarları ilə harada gəldi selfi çəkdirdi.**

*”Rusiya daha çox region dövlətlərinin AİI və KTMT-də təmsil olunmasında maraqlıdır”*

# Putin "KTMT-də müşahidəçilik" bəyanatı ilə Ermənistanın bütün ümidlərini kəsdi...

## *Ramil Hüseynov: ”Rusiya Prezidenti bununla Ermənistana öz yerini göstərdi”*




Ancaq Putin-Paşinyan münasibətlərinin real vəziyyətini öyrənməkdən ötrü Rusiya Prezidentinin İrəvana bir neçə saatlıq səfərini müşahidə etmək yetərli idi. Rusiya Prezidentinin İrəvandakı hava limanına enməsindən sonra çəkilən fotolarda Putinin təbəssümü çox şeyi büruzə verirdi. Açıq-aydın görünürdü ki, Putin Paşinyandan razı deyil. Sadəcə, təşkilat xatirinə Putin İrəvana gəlib. Nəzərə almaq lazımdır ki, AİI-nin yaradıcısı Rusiyadır. Düzdür, zirvə toplantısında əməkdaşlığın müxtəlif istiqamətləri müzakirə edildi. Ancaq təşkilatın əvvəlki 4 zirvə toplantısında nə müzakirə olunubsa, bu dəfə də təxminən eyni mövzular müzakirəyə çıxarıldı. Yəni fövqəladə elə bir ciddi hadisə baş vermədi. Sadəcə, bəzi ölkələr AİI-lə müəyyən əməkdaşlıqda maraqlı olduqlarını bəyan etdilər.

Diqqətçəkən məqamlar Rusiya Prezidenti Vladimir Putinin tədbirdə çıxışı zamanı toxunduğu bəzi məsələlər idi. Rusiya Prezidenti bildirib ki, qurum bir sıra ölkələrlə əməkdaşlığa dair danışıqlar aparır. Eyni zamanda, o qeyd edib ki, 13 ölkə ilə KTMT-də müşahidəçi statusunda iştirak etməklə bağlı danışıqlar gedir. Rusiya Prezidenti sözügedən məsələ ilə bağlı ölkələrin adını çəkməyib. Əslində, bu, Ermənistana güclü zərbədir. Bu o deməkdir ki, Ermənistan bu məsələdə konsensusu əlində əsas tutub hansısa ölkənin sözügedən statusla təşkilatda iştirakına mane ola bilməz. Hansı ki, Ermənistan rəsmiləri bir ara bu məsələdə onların razılığının mütləq olmasını qabardırdılar. Bir sözlə, istəmirdilər müəyyən ölkələr KTMT-də müşahidəçi statusu ilə təmsil olunsunlar. Ancaq məlum oldu ki, heç də hər şey Ermənistanın iradəsindən asılı deyil.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu o deməkdir ki, Ermənistan, sadəcə, "peşkadır": "Ermənistandan bir vasitə kimi istifadə edilir. Ermənistanın KTMT-də təmsil olunması o demək deyil ki, bu ölkə bərabərhüquqlu üzv statusuna malikdir. Təbii ki, bu ancaq sözdə və kağız üzərində ola bilər. Praktiki olaraq Ermənistan KTMT-nin genişlənməsinə, orada müşahidəçi statusu ilə iştirak edən ölkələrin sayının artmasına mane ola bilməz. Məsələ ondadır ki, Rusiya böyük dövlətdir. Böyük dövlət olaraq maraqlıdır ki, patronu olduğu təşkilatda daha çox ölkə təmsil olunsun. Bu zaman mütləq deyil ki, bütün ölkələr KTMT-nin üzvü olsunlar. Təşkilatda müşahidəçi statusla iştirak etmək də Rusiyanın maraqlarına uyğundur. Xüsusən bir məqama diqqət edilməlidir ki, Rusiya daha çox region dövlətlərinin AİI və KTMT-də təmsil olunmasında maraqlıdır. Məhz region dövlətləri bu məsələdə Rusiya üçün vacib önəm kəsb edirlər. Bu da təsadüfi deyil. Ona görə ki, Kreml NATO-nun genişlənməsindən narahatdır. Region dövlətlərinin NATO-ya inteqrasiyası Rusiya ətrafında həlqəni daha da daralda bilər. Bütün bunlar da, təbii ki, Kremlin maraqlarına uyğun deyil. Ona görə də Putin bununla Ermənistana öz yerini göstərdi".

***Vidadi ORDAHALLI***

**Ali Avrasiya İqtisadi Şurasının iclasında iştirak etmək üçün oktyabrın 1-də İrəvana gələn Rusiya Prezidenti Vladimir Putin Rusiya səfirliyində Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həyat yoldaşı Bella Köçəryanla görüşüb. Ermənistanın sabiq prezidentinin ofisi və Rusiya səfirliyi bu məlumatı şərh etməyiblər.**



# Putin İrəvanda məhbus Köçəryanın ailəsi ilə görüşün timsalında kimə və nə demək istədi...

## *Hatəm Cabbarlı: ”Bununla Moskva post-Paşinyan dövrü üçün artıq seçim etdiyini bildirir və bu məsələdə Köçəryanın üzərində durduğuna işarə edir”*

Qeyd edək ki, bundan əvvəl də yayılan məlumatlarda bildirilirdi ki, Putin İrəvana səfəri çərçivəsində həbsxanada R.Köçəryanla görüşəcək. R.Köçəryana Rusiyanın belə isti münasibət göstərməsi Moskvanın Paşinyan hakimiyyətinə etdiyi bir təzyiq vasitəsi kimi qəbul edilir. Təsadüfi deyil ki, Putin bu müddət ərzində iki dəfə Köçəryana məktub yazıb, onu ad günü münasibətilə təbrik edib. Putinin Köçəryanın həyat yoldaşı ilə görüşməsi də adi hadisə sayıla bilməz. Hər halda, burada ciddi mesajlar da var. Bununla Putin nə demək istəyib?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiya Prezidenti Putinin Avrasiya İqtisadi Forumunun işində iştirak etmək üçün İrəvana etdiyi səfər çərçivəsində həbsdə olan sabiq prezident Köçəryanın həyat yoldaşı ilə görüşməsinə sıradan bir hadisə kimi baxmaq olmaz: "Putinlə Paşinyan arasında da görüş olub. Onlar iki ölkə arasında iqtisadi, siyasi təhlükəsizlik məsələlərini müzakirə ediblər. Eyni zamanda, Avrasiya İqtisadi Birliyinin imkanlarının genişləndirilməsi ilə bağlı mövzulara toxunublar. Putin Ermənistana səfər etməzdən əvvəl bildirilirdi ki, Rusiya Prezidenti İrəvanda cəmi yarım gün qalacaq. Bunu daha çox erməni müxalif saytlar yayırdı. Amma Putin gəlib normal şəkildə tədbirdə iştirak etdi. Eyni zamanda, bildirilirdi ki, Putin Köçəryanla görüşə bilər. Bəlkə də Putinin belə bir niyyəti olub, ancaq Ermənistan buna icazə verməyib. İstənilən halda, Putinin onun həyat yoldaşı ilə görüşməsi də həmin hadisəyə adekvat sayıla bilər. Həmin görüşün təfərrüatı barədə məlumat verilməyib. Təxmin etmək olar ki, orada söhbət Ermənistandakı daxili vəziyyətdən və R.Köçəryanın həbsindən gedib. Bu, birmənalı şəkildə, Putinin Ermənistana etdiyi təzyiq kimi qiymətləndirilə bilər. Bununla Putin Moskvanın Köçəryanın həbsinə dözümsüz yanaşdığını büruzə verir. Eyni zamanda, ehtimal edə bilərik ki, bununla Moskva post-Paşinyan dövrü üçün artıq seçim etdiyini bildirir və bu məsələdə Köçəryanın üzərində durduğuna işarə edir. Paşinyanla görüşün olmasına baxmayaraq, hadisələrin gedişi göstərir ki, Putinin mövqeyi prinsipial olaraq qalır. Hər halda, Paşinyan bu jestdən nəticə çıxarıb Köçəryanla bağlı ciddi addımlar atmasa, ona qarşı daha tutarlı təzyiq variantlarından istifadə olunacaq. Köçəryanı həbsdə saxlamaqla Paşinyan həm də daxili auditoriyaya sübut etmək istəyir ki, guya o, Rusiyadan asılı deyil. Hazırda daxildə də Köçəryanın azadlığını tələb edənlər çoxalıb. Bu həbs həm də Köçəryanı Ermənistanın bütün narazı elektoratının liderinə çevirmiş olub. Görürsünüz ki, hətta Köçəryanın azadlığını tələb edən etiraz aksiyaları da keçirilir. Yəqin ki, yaxın zamanlarda bu daha geniş miqyas alacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Avrasiya Birliyinin İrəvan Sammiti - azad ticarət sazişləri fonunda Paşinyanın böyük siyasi fiaskosu...

**Məlum olduğu kimi, Avrasiya İqtisadi İttifaqının növbəti sammiti İrəvanda keçirilib. Rotasiya qaydasına uyğun olaraq, Avrasiya İqtisadi İttifaqına hazırda Ermənistan sədrlik edir. Maraqlıdır ki, məhz bu amilə görə erməni mətbuatı qurumun işində olan müəyyən epizodik irəliləyişləri Paşinyanın uğuru kimi qələmə verməyə çalışır.**

Bu xüsusda toplantıda üzv ölkələrdən başqa, Moldovanın müşahidəçi qismində, İran və Sinqapurun liderlərinin isə qonaq qismində iştirak etməsini Paşinyanın uğuru kimi təqdim edirlər. Həmçinin, Moldova Prezidentinin qurumun gələcəkdə Avropa Birliyi ilə də yaxından əməkdaşlıq etməsi təklifini də az qalırlar öz uğurları sırasına aid etsinlər. Hətta İranla Ermənistan arasında əldə olunan xırda razılaşmaları da Avrasiya İqtisadi İttifaqının "uğuru" olaraq cəmiyyətə sırımaq istəyirlər.

Ancaq bu istiqamətdə cərəyan edən proseslər göstərir ki, məhz bu sammit öncəsi və onun keçirildiyi gündə Ermənistanı siyasi cəhətdən fiaskoya aparan ciddi hadisələr baş verib. Toplantının gedişində Rusiya ilə müzakirəsi gözlənilən qaz müqaviləsi ətrafında heç bir danışıq aparılmadı. Ermənistanı ciddi şəkildə narahat edən KTMT-də müşahidəçilik statusu ilə bağlı 13 dövlətlə danışıqların aparıldığı üzə çıxdı. Putin Paşinyanın ən qatı düşməni olan Köçəryanın həyat yoldaşı ilə İrəvanda görüşdü. Putinlə Paşinyanın arasında baş tutan görüş o qədər də səmimi atmosferdə keçmədi. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistanın bu ərəfədə itirdiyi qazandığından çox olub.

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanda Avrasiya İqtisadi Birliyinin (AİB) beşilliyi ərəfəsində bir çox mühüm qərarın qəbulu ilə nəticələnmiş sammitini İrəvan rəsmiləri, habelə Ermənistandakı Rusiyapərəst qüvvələr öz xeyrinə olan vacib əhəmiyyətli tədbir kimi qələmə verməyə çalışsalar da, prosesin mahiyyətini təhlil etdikdə bunun tamamilə yalan olduğunu görmək olar:



"Əvvəla Prezident Putinin Baş nazir Paşinyana münasibətinin soyuq olması səbəbindən Rusiya dövlət başçısının sammitə qatılması müəmmalı olaraq qalmaqda idi. Bu həm Ermənistan, həm də Rusiya mətbuatında, eləcə də siyasi kuluarlarda əsas müzakirə mövzusu idi. Putinin tədbirə qatılmayacağının əsas əlamətlərindən biri olaraq İrəvandakı Rusiya səfirliyinin Prezidentin səfəri ilə bağlı heç bir hazırlıq görmədiyi qeyd olunurdu. Rusiyanın sadiq əlaltısı, son dövrlərdə Putinin şəxsi himayəsini gizlətməyə belə lüzum görmədiyi Köçəryanın həbsdə olmasından tutmuş bir sıra fikir ayrılıqları da daxil olmaqla, Paşinyanın siyasətindən narazılıq səfərin təxirə salınması ehtimalını gücləndirirdi. Lakin, görünür, ya məxfilik səbəbindən, yaxud labüd geosiyasi ambisiyalar və şərtlər yaranması zərurətindən Rusiya Prezidentinin səfəri reallaşdı və o, İrəvana gələrək ondan icazəsiz Ermənistanın heç bir addım ata bilməyəcəyi mesajını verdi, öz təbirincə desək, "buranın sahibinin kim olmasını" bir daha sübut etdi. Düşünürəm ki, İsrail Baş naziri Netanyahunun Moskva səfəri zamanı onun Putindən seçkilərdə dəstək alması müqabilində İsrail dövləti ilə Ermənistan məsələsində razılığa gəlməsi istisna olunmamalıdır".

Politoloqun sözlərinə görə, ABŞ yəhudi icmasının bu səbəbdən Paşinyana dəstəyini azaltması mümkündür ki, İsraildə Ermənistan səfirliyinin açılması, Avrasiya İqtisadi Birliyinin sammitinə İranın dəvət olunması, İsrailin ərəb və islam dünyasında yaxın müttəfiqi Misirlə Avrasiya İqtisadi Birliyi arasında azad ticarət sazişinin imzalanması barədə razılıq bunun təzahürləri sayıla bilər: "Sammitin mühüm geosiyasi nəticəsi ondan ibarətdir ki, planetin 63 faiz əhalisinin yaşadığı böyük bir coğrafiyanı əhatə edən Çinin "Bir qurşaq, bir yol" meqalayihəsi Avrasiya İqtisadi Birliyi məkanına nüfuz etməyi, onunla inteqrasiyanı təsbit etdi. Bu, dünyada və bizim də yerləşdiyimiz regionda tamamilə yeni geosiyasi şərait yaradır. Ermənistan AİB vasitəsilə müəyyən layihələrə qoşulmaq imkanı əldə edə bilər. Oktyabr ayının 27-də AİB-in Çinlə imzalanmış və ticarət prosedurlarını sadələşdirən mühüm sazişlərdən biri qüvvəyə minir. Lavrov bunun regionda yeni geosiyasi konturlar cızdığını vurğulayıb. Bu onu göstətir ki, Ermənistan Rusiyanın təzyiqi ilə Avrasiya meqalayihələrinə qoşulmaqdadır. Bununla da o, Paşinyanın hakimiyyətə gəlməsindən bəri həyata keçirdiyi ABŞ və Rusiya arasında manevr imkanlarından məhrum edilməkdədir, geosiyasi, geoiqtisadi və sair nöqteyi-nəzərdən nəhəng Avrasiya layihəsinin bir hissəsinə çevrilməkdədir.

İran Prezidenti Ruhaninin tədbirə dəvət edilməsi İran və Rusiyanın Ermənistanı heç zaman Vaşinqtonun Moskvaya və Tehrana qarşı istifadəsinə imkan verilməyəcəyi mesajını ötürmüş oldu. İran Prezidenti Ruhanidən savayı, Sinqapur Prezidentinin sammitə qatılması, Moldova Prezidenti İqor Dodonun müşahidəçi qismində tədbirdə iştirakı, ABŞ-ın bir vaxtlar bombardman edib ərazisində müstəqil Kosovo dövləti yaratdığı Serbiyanın şərq tərəfdaşları ilə İrəvanda kontraktlar imzalanması ilə Rusiya Qərbə vacib geosiyasi mesajlar ötürmüş oldu. Lakin bu savaşın poliqonu növbəti dəfə də ambisiyaları ilə potensialı uyğun gəlmədiyi halda böyük güclərin oyunlarına alət edilmiş Ermənistan olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**İrəvanda baş tutan Avrasiya İqtisadi Birliyinin (AİB) sammitinə qatılan dövlət başçılarının mövqeyi bir daha göstərdi ki, onlar, Ermənistanla eyni təşkilatda təmsil olunmalarına baxmayaraq, Azərbaycanla münasibətləri inkişaf etdirməkdə olduqca maraqlıdırlar.**

# Belarus prezidenti Ermənistanda da Azərbaycanın mənafeyini müdafiə etdi



Bu, xüsusən Belarus prezidenti Aleksandr Lukaşenkonun Ermənistan paytaxtında səsləndirdiyi fikirlər fonunda özünü qabarıq şəkildə büruzə verdi.

Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə Belarus prezidenti Azərbaycan dövlət başçısı ilə yaxın dostluq münasibtlərinə malik olduğunu bildirib. Lukaşenko Paşinyanla söhbəti zamanı deyib: "Siz mənim üçün çox yaxşı dostsunuz, Azərbaycan prezidenti isə uzun müddətdir yaxşı dostdur. Yaxşı, bu gün mən nə etməliyəm? Mən həm Ermənistanla, həm də Azərbaycanla çox yaxşı münasibətdəyəm". Bütün bunlar, erməni mediasının yazdığına görə, Nikol Paşinyanın xoşuna gəlməyib. Paşinyan Lukaşenkoya deyib ki, Ermənistan və Belarusun kollektiv maraqları var və bunu unutmaq olmaz. Erməni baş nazir bu fikrində Ermənistan və Belarusun da daxil olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) nəzərdə tutub. Bununla yanaşı, Minsk Bakıya silah satır və bu, İrəvanın narazılığına səbəb olur. Beləliklə, Qarabağa qanunsuz səfərlər etmiş bloger Aleksandr Lapşini Azərbaycana təhvil verməklə, həmçinin, KTMT baş katibi postuna iddia etməsinə baxmayaraq, Paşinyanın istəklərinə "yox" deməklə Ermənistan rəhbərliyini peşman etmiş Belarus lideri bu dəfə də ölkəmizlə əməkdaşlığı inkişaf etdirəcəyini İrəvanın nəzərinə çatdırdı. Paşinyanın bütün narazılığına baxmayaraq, Minsk Bakı ilə münasibətləri daha da dərinləşdirmək istədiyini açıq dilə gətirir. Məsələ ilə bağlı belaruslu politoloq Petr Petrovski isə bildirir ki, İrəvanın narazılığının Minsk üçün heç bir əhəmiyyəti yoxdur. O qeyd edib ki, Aleksandr Lukaşenko hər hansı millətçi şüar və fikirlərə pis münasibət bəsləyir: "Belarus Respublikasını başqa bir ölkə naminə digər ölkə ilə müqayisə etməyi Belarus prezidenti qəbul etməyəcək. Aleksandr Lukaşenko yalan, "siyasi qarışıqlıq" cəhdlərini sevmir". Onun sözlərinə görə, erməni tərəfinə açıq şəkildə bildirilib ki, Ermənistanla əməkdaşlıq ediləcək, ancaq bu, Azərbaycanla əməkdaşlığa zidd olmayacaq. Həmçinin, Minskin Bakı və İrəvanla ikitərəfli ticarət əlaqələrinin müqayisəsi təklif edilib.

Petrovski "media.az" portalına açıqlamasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvlərinin qarşılıqlı əməkdaşlığına müdaxilə etmək adətinə görə Ermənistanı səbətdəki "beşinci təkər" adlandırıb. Onun sözlərinə görə, məhz İrəvana görə bu gün KTMT-nin rəhbəri yoxdur: "Belarus prezidenti deyib ki, Ermənistan rəhbərliyi Azərbaycanla öz problemlərini həll etmək üçün Belarus Respublikasından istifadə etməyə çalışmamalıdır. Bu problemləri Belarus yaratmayıb. ATƏT-in Minsk Qrupu çərçivəsində müəyyən beynəlxalq mexanizmlər və razılaşmalar mövcuddur. Və Belarus həmişə bildirib ki, Ermənistanın problemi varsa, bunu beynəlxalq mexanizm çərçivəsində həll etmək mümkündür". Onun sözlərinə görə, Minsk əlverişli şərtlərlə Ermənistana silah satmağa hazırdır, lakin İrəvana kredit vermək üçün pulu yoxdur: "Ermənistan rəhbərliyinin iddiaları ölkəmizin Bakı ilə bağladığı müqavilələr üzrə öhdəliklərini yerinə yetirməməsi üçün Belarusa təsir etmək cəhdidir". Amma o, bu cəhdlərin iflasa uğradığını da açıq vurğulayır.

Qeyd edilənlərdən aydın görünür ki, hətta Ermənistanın özündə belə Azərbaycanın Belarus tərəfindən dost ölkə olaraq ifadə edilməsi Bakının İrəvan üzərində daha bir qələbəsi sayıla bilər. Ermənistanın "İrates" qəzeti də yazır ki, Azərbaycan, təmsil olunmamasına baxmayaraq, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında və Avrasiya İqtisadi Birliyində mühüm çəkiyə malikdir və bu da İrəvanın qurumlarda manevr imkanlarını daraldır.

Rusiyalı ekspert Yevgeni Mixaylov isə bildirir ki, Ermənistanın narazılığına baxmayaraq, Azərbaycan istəsə, sözügedən qurumlarda çox asanlıqla müşahidəçi statusu ala bilər: "Məsələn, Azərbaycan KTMT-də müşahidəçi statusu alsa, bu, postsovet məkanında təhlükəsizliyin əldə edilməsi üçün böyük bir addım ola bilər. Siyasi stabillik və iqtisadi inkişafın hökm sürdüyü Azərbaycan bu təşkilata lazımdır. Bakının öz siyasi kursu var və dünya dövlətləri onunla hesablaşır. Hətta müşahidəçi qismində belə bir müttəfiq əldə etməyə bir çoxları can atır. Moskva buna sadəcə şad ola bilər. Məhz Rusiya təşkilatın əsas oyunçusudur. Azərbaycana silah satılması barədə İrəvanın küskünlüyü və ittihamları məsələsinə gəldikdə, Ermənistandan fərqli olaraq, Rusiya və KTMT-yə üzv olan digər dövlətlər Azərbaycanla dostluq münasibətindədir. Buna uyğun olaraq da, Moskva lazım olan silah və hərbi texnikanı satmaq hüququna sahibdir".

Erməni ekspert Aleksandr Sarkisyan da qeyd edir ki, İrəvanda baş tutan Avrasiya İqtisadi Birliyinin sammiti Ermənistana heç nə qazandırmadı: "Əksinə, Paşinyanın bütün dediklərinə rəğmən, Rusiya ilə münasibətlərin soyuması özünü açıq büruzə verir. Özü də o vaxtda ki, Bakı-Moskva münasibətləri sürətlə yaxşılaşır. Bunun əvəzində Ermənistanın daxili siyasi sistemində uzunmüddətli varlığını təmin etmək üçün Rusiya Ermənistanda bir-birinə qarşı olan iki inqilabçı və əks-inqilabçı düşərgə yaratmağa çalışır. Buna görə Putin üçün, Kremlin maraqlarına və mənafelərinə xidmət etmək üçün həbsxanadan effektiv mübarizəyə başlaya bilməyən Köçəryanın azadlığı çox vacibdir. Paşinyan əvvəlkitək Putinin dostu Köçəryanı həbsdə saxlayır. Bu isə Kreml sahibini narahat etməyə bilməz. Biz qarşıdakı dövrdə Moskvanın İrəvana təzyiqlərinin sadəcə artmasına şahidlik edə bilərik. Digər tərəfdən, İrəvanın istəyinə baxmayaraq, Rusiya Ermənistana satdığı qazın qiymətini ucuzlaşdırmaq istəmir. Belə vəziyyət Putinin Paşinyana hansı münasibət bəsləməsinin aydın təzahürləridir".

***Nahid SALAYEV***

**Azərbaycanın tərəfdaşları ilə birlikdə böyük uğurla həyata keçirdiyi nəqliyyat layihələri bu gün ölkə üzərindən daşınan yüklərin əhəmiyyətli dərəcədə artımı ilə müşahidə olunur. Reallaşmaqda olan "Şimal-Cənub","Şərq-Qərb" dəhlizləri, digər infrastruktur layihələri artıq ölkəmizə böyük dividendlər gətirir.**

# Azərbaycanın qabaqlayıcı işləri Ermənistanın Fars körfəzi - Qara dəniz nəqliyyat dəhlizi niyyətini də puça çıxardı...




Belə vəziyyətdə son dövrlərdə diqqət cəlb edən məqamlardan biri Fars Körfəzi-Qara dəniz nəqliyyat dəhlizi ilə bağlıdır.

Xatırladaq ki, bu layihəyə Bakı "Şimal-Cənub" dəhlizi fonunda qoşulmağa hazır olduğunu bildirib. Sözügedən nəqliyyat dəhlizi tranzit yüklərin Hind okeanından, Fars körfəzindəki Bəndər-Xomeyni və Bəndər-Abbas limanlarından dəmir yolu ilə İran, Azərbaycan və Gürcüstana, Qara dəniz limanlarından əks istiqamətdə iqtisadi baxımından daha səmərəli nəqlini təmin etmək iqtidarındadır. Hesablamalara görə, mövcud infrastruktur nəzərə alınmaqla Poti və Batumi limanlarına Bəndər-Abbas limanından yükdaşımalar 7 gün ərzində, Mumbai limanından isə 14 gün ərzində həyata keçirilə bilər. Qeyd edək ki, Fars Körfəzi-Qara dəniz nəqliyyat dəhlizinin reallaşmasında İran xüsusilə maraqlı tərəf qismində çıxış edir. Elə o vaxtdan bəri Ermənistan da bu layihədə iştirak üçün İranla sıx işbirliyi qurmağa can atır. Aydındır ki, bu nəqliyyat dəhlizi çərçivəsində Ermənistanın xüsusi canfəşanlığı iqtisadi blokadadan yaxa qurtarmağa hesablanıb. Amma illərdir Ermənistan özünü nəqliyyat qovşağı kimi göstərsə də, hazırda heç bir beynəlxalq tranzit nəqliyyat layihəsi reallaşdıra bilmədiyindən, maraq dairəsində deyil. Bunu anlayan Ermənistan hökuməti yenə İranla açıq olan sərhədindən istifadə edərək ya cənuba, ya da şimala doğru nəqliyyat dəhlizi formalaşdırmaq niyyətindədir. Amma indiyə qədər edilən cəhdlər fayda vermir. Məsələn, məlumdur ki, maliyyənin olmaması İranın Ermənistanla birgə dəmir yolu planlarını həyata keçirməyə imkan vermir. Ermənistan hökuməti bu mövzu ətrafında İran rəsmiləri ilə dəfələrlə müzakirələr aparıb. Erməni şərqşünası Vardan Voskanyan bildirib ki, Türkiyə və Azərbaycanı yan keçməklə çəkilməsi nəzərdə tutulan bu nəqliyyat xətti üzrə proqram hələ 2014-cü ildə qəbul olunub. Amma o vaxtdan bəri hansısa real addım atılmayıb. Ermənilərin İranı şirnikləndirəcəyi əsas cəhət isə Tehranın guya bu dəmir yolu ilə Qara dənizə və oradan da Çinə daha asan çıxış əldə edəcəyidir. Amma İran-Çin-Ermənistan formatında layihə həyata keçirilməsi xəyalında olan ermənilər özləri də etiraf edirlər ki, iranlı tacirlərin Uzaq Şərqə çıxış üçün istifadə edəcəkləri çoxlu sayda nəqliyyat dəhlizləri mövcuddur. Hazırda bu dəmir yolu xəttinin maliyyə dəyəri 3,2 milyard dollar təşkil edir və bunu ödəməyə Ermənistanın vəsaiti yoxdur. "Şimal-Cənub" dəhlizinin işə düşməsi fonunda isə İran bütün diqqətini Azərbaycana yönəldib. Eləcə də İrandan Ermənistana avtomobil yolunun çəkilməsi məsələsi iflasa uğrayıb. Ermənistanın məhdud nəqliyyat imkanları və logistika ilə bağlı problemləri İranı bu ölkədən üz döndərməyə vadar edir. Eləcə də Ermənistanın İran-ABŞ qarşıdurmasında ikincinin yanında yer alması Tehranın İrəvandan üz döndərməsini şərtləndirir. Bütün bunlar fonunda Fars Körfəzi-Qara dəniz nəqliyyat dəhlizinin də Ermənistanın üzünə bağlandığını demək olar. Bunu məsələ ilə bağlı analitik yazı dərc etmiş Bağırovun "Foreign Policy News" nəşri də artıq təsdiq edib. Burada qeyd olunur ki, layihə Azərbaycan vasitəsilə həyata keçirilərsə, bu, kommersiya baxımından daha səmərəli olar: "Belə ki, zəruri infrastruktur artıq Azərbaycanda mövcuddur. Ermənistana gəldikdə, bu ölkənin üzdə İranla heç bir siyasi problemi yoxdur. Lakin Ermənistanda layihə üçün zəruri infrastruktur yoxdur. Ermənistan layihədə dəmiryolu vasitəsilə iştirak etmək istəyirsə, bunun üçün dəyəri 3,2 milyard dollardan çox olan Cənubi İran-Ermənistan seqmenti tikilməlidir. Bu isə Ermənistanın maliyyə imkanları xaricindədir. İranın özü də maliyyə problemlərinə görə Ermənistana kömək edə bilmir. Xarici maliyyələşmə əldə etmək isə çətindir, heç kim səmərəsiz layihəyə investisiya yatırmaq istəmir. Digər tərəfdən isə Ermənistanın dəmir yolu Rusiyanın idarəçiliyi altındadır və bu layihə Rusiyanın regiondakı maraqlarına xidmət etmir. Ermənistanın avtomobil yollarında da vəziyyəti yaxşı deyil və modernizasiyaya ehtiyac var. Bu məqsədlə də Ermənistan 2012-ci ildən başlayaraq özünün ən böyük nəqliyyat layihəsi, "Şimal-Cənub" magistral yol layihəsini həyata keçirir və layihənin yalnız 20 faizini icra edə bilib. Bu layihənin dəyəri də yüksəkdir və 2 milyard dollar təşkil edir. Maliyyə problemlərinə görə 2018-ci ilin dekabrından etibarən tikinti dayandırılıb. Buna görə də avtomobil yolları ilə də Ermənistanın bu layihədə iştirakında məhdudiyyətlər mövcuddur.

Gürcüstan isə hər iki istiqamət üzrə layihənin keçəcəyi ölkədir və onun layihədə iştirak edən ölkələrlə siyasi problemləri yoxdur. Hələlik, Azərbaycan və Gürcüstandan fərqli olaraq, Ermənistanın bu layihəyə maraq göstərməsi başadüşüləndir. Bu ölkə regiondakı bütün layihələrdən kənarda qalıb və Fars Körfəzi-Qara dəniz nəqliyyat dəhlizi vasitəsilə özünü iqtisadi blokadadan qurtarmaq istəyir.

Lakin qeyd edilən siyasi və maliyyə problemləri layihənin həyata keçirilməsini mümkünsüz edir". Bütün bunlar bir daha təsdiq edir ki, Fars Körfəzi-Qara dəniz nəqliyyat dəhlizi ilə də bağlı Ermənistanın ümidləri puç olacaq. İndilikdə bu layihənin nə vaxt həyata keçəcəyi dəqiq bilinmir. Real şərtlər həm də onu göstərir ki, Fars Körfəzi-Qara dəniz nəqliyyat dəhlizi reallaşarsa, onun keçəcəyi ünvan yenə Azərbaycan olacaq. Çünki ölkəmizdə mövcud imkanlar bütün parametrlər baxımından İrana sərf edir. Onsuz da Azərbaycanın bu cür geniş infrastruktura malik olması və son vaxtlar rəsmi Bakı ilə Tehran arasında əlaqələrin yüksələn xətlə inkişafı iki dövlətin daha yaxın əməkdaşlığını zərurətə çevirir. Bu əməkdaşlığı şərtləndirən əsas amillərdən biri, nəqliyyatla yanaşı, Azərbaycanın Tehrana neft və qazının Avropaya ixracı üçün də öz infrastrukturundan istifadəni təklif etməsidir. Belə vəziyyətdə İranın daha çox Azərbaycana yaxınlaşması da başadüşüləndir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan üçün Qarabağ təcavüzündən başlayan zəncir: iqtisadi çöküş - ordunun dağılması - əhalinin azalması - ölkənin boşalması...

**Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllinin Ermənistan üçün kifayət qədər böyük fəlakətlərə gətirib çıxaracağına dair yerli və beynəlxalq miqyasda bu vaxta qədər işğalçı ölkəyə dəfələrlə xəbərdarlıq edilib. Burada əsas diqqət ona yönəldilib ki, ötən müddət ərzində Azərbaycan bütün mühüm parametrlər üzrə gücləndiyi halda, Ermənistanda tamamilə əks vəziyyət müşahidə olunub.**

Həqiqətən də bu gün Azərbaycan iqtisadi, hərbi, siyasi, diplomatik gücünə görə Ermənistanı çox geridə qoyur. Digər tərəfdən, real vəziyyət göstərir ki, Ermənistanın çöküşü, xüsusən də bu ölkənin əhalisinin sayının yüksək templə azalması İrəvanı daha aciz duruma salır və Qarabağ münaqişəsinin taleyinə birbaşa təsir göstərir. Bunu Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da açıq şəkildə etiraf edir: "Əhalinin sayının azalması, miqrasiya bizim təhlükəsizliyimizin ən ciddi problemlərindən biridir. Bu, ilk növbədə orduya mənfi təsir edir. Biz bu problemin həll yolunu axtarmağa çalışırıq, amma bir komponentin köməyilə problemi həll etmək mümkün deyil". Onun fikrinə əsasən, əhali sayının azalması milli təhlükəsizlik üçün böyük təhdiddir. O qeyd edib ki, əhali sayı azaldığı üçün ölkə iqtisadi aktivlik və rəqabətədavamlılıq göstərə bilməyəcək. Bu isə adambaşına düşən xərcin artması deməkdir. Belə bir tendensiya dövlət üçün böyük yükdür və milli təhlükəsizliyi üçün də problemdir.

Yeri gəlmişkən qeyd edək ki, təkcə rəsmi rəqəmlərə görə, Ermənistan əhalisi son 27 il ərzində 600 min nəfər azalıb. Reallıqda isə bu rəqəmin ən azı 2 dəfə çox olduğu, ölkədə yaşayan real əhalinin sayının heç 2 milyona belə çatmadığı da məlum həqiqətdir. Rəsmi statistikaya əsasən isə, Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini qadınlar təşkil edir. Bunun başlıca səbəbi isə emiqrasiya sayılır. Ermənistanın Əmək və Sosial Məsələlər Nazirliyinin demoqrafiya bölməsinin rəisi Artak Markosyanın sözlərinə görə, reproduktiv insanların ölkəni tərk etməsinin ağır izləri Ermənistanda qalıb: "1992-2002-ci illərdə doğum 60 faiz azalıb. Bu, keçmiş SSRİ ölkələri arasında ən yüksək göstəricidir. On il ərzində doğum 70 mindən 32 min nəfərə enib. Mühacirət və demoqrafik strategiyanın olmaması 27 ildə acınacaqlı vəziyyət yaradıb". BMT Əhali Fondunun Ermənistandakı icraçı nümayəndəsi Tsovinar Harutyunyan ölkənin demoqrafik böhrana qədəm qoyduğunu, artıq ölüm sayının doğum sayını üstələdiyi əhalinin azalması həddinə yaxın olduğunu açıqlayıb.

Yuxarıda qeyd olunduğu kimi, belə vəziyyət erməni ordusunun durumuna da birbaşa təsir edir, onun şəxsi heyətlə təminatı sarıdan ciddi problemlər yaradır. Bu xüsusda rusiyalı ekspert Yeqor Mixaylov çox maraqlı fikirlər səsləndirir: "Ermənistandakı demoqrafik və sosial böhran silahlı qüvvələrdə döyüş hazırlığının səviyyəsinə də mənfi təsir göstərir". Rusiyalı ekspertin fikrincə, Ermənistandakı mövcud demoqrafik fəlakət məhz ölkə rəhbərlərinin bəsirətsiz siyasəti, yəni işğalçılıq siyasəti nəticəsində qonşu ölkələr arasında təklənməsi ucbatından baş verib: "Əsas məsələ əhalinin xaricə axını və doğum sayının azalmasıdır. Ermənistanın cana doymuş xalqı nə edəcəklərini, ailəni layiqincə saxlamağa imkan olmadığı bir şəraitdə necə dolanacaqlarını bilmir. Gənclər bütün ümidlərini xaricə getməyə bağlayır".

Ekspert bu gün Ermənistandan və işğal altındakı Dağlıq Qarabağdan yüzlərlə erməni gəncin ilk fürsətdəcə xaricə üz tutmağa hazır olduğunu bildirir: "Budur erməni başbilənlərinin zəhmətinin bəhrəsi. Qonşulara qarşı düşmənçiliyin sonu yoxdur. Sadə ermənilər artıq hər şeyi dərk edir, rəsmi mövqe ilə üst-üstə düşməyən nəticələr çıxarırlar. Onların qənaətincə, yoxsulluq və səfalətin tüğyan etdiyi Ermənistanda uşaq sahibi olmaqdansa, baş götürüb xaricə getmək məsləhətdir. Hazırkı demoqrafik böhran ordunun döyüş qabiliyyətinə də təsir göstərir. Dağlıq Qarabağ münaqişəsinin başlamasından sonra artıq bütöv bir nəsil dəyişib. Bugünkü nəslin əvvəlkilər qədər sağlam olmaması üzündən bir sıra döyüş tapşırıqlarını yerinə yetirmək iqtidarında olmamasına görə erməni əsgərlərinin döyüş hazırlığında kəskin geriləmə göz qabağındadır. Bunun səbəbi də iqtisadiyyatın acınacaqlı vəziyyəti üzündən güzəranı təmin edəcək qazanc mənbələrinin olmaması nəticəsində bir çox valideynin övladlarını lazımınca qidalandırmamasıdır". Miqrasiya, demoqrafiya problemini həll edə bilməyən Ermənistan ordusunun perspektivdə əsgər, hərbçi qıtlığı problemi ilə daha kəskin şəkildə üzləşəcəyi istisna edilmir.

Erməni ordusu ilə bağlı problem təkcə şəxsi heyətlə təminat sarıdan özünü göstərmir. Ölkədə ordunun maddi-texniki təminatı sarıdan da ciddi çətinliklər özünü qabarıq şəkildə büruzə verir. Azərbaycan bu istiqamətdə böyük nailiyyətlərə imza atdığı bir vaxtda Ermənistanda qeyd edilən istiqamət üzrə ciddi çöküş müşahidə olunur. Xatırladaq ki, Azərbaycanda ordu quruculuğu prosesində, həmçinin Silahlı Qüvvələrin maddi-texniki təminatında mühüm nailiyyətlər əldə edilib. Faktdır ki, ordunun istər döyüş hazırlığı, istərsə də texniki vasitələrdən tutmuş digər maddi ehtiyatlarla təchizatı baxımından Azərbaycanla düşmən ölkə arasında fərq dəfələrlə ölçülür. Özü də Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki təminatının artıq xeyli hissəsini öz potensialı hesabına ödəməkdədir. Yaxın perspektivdə isə ölkənin müdafiə sənayesinin istehsal etdiyi məhsulların çeşidinin daha da çoxalacağı gözlənir ki, bu da Silahlı Qüvvələrin texniki ehtiyacının əsas etibarilə yerli istehsal hesabına ödəniləcəyindən xəbər verir. Eləcə də ordunun döyüş qabiliyyəti baxımından ölkəmiz böyük uğurlara imza atıb. Ölkənin hərbi prokuroru Xanlar Vəliyevin bu xüsusda dedikləri də ordumuzun mühüm nailiyyətlərindən xəbər verir. Hərbi prokuror bildirib ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, Azərbaycan ordusu 52-ci yeri tutub: "Bu isə Azərbaycan ordusunun Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha təsdiq edir. Hər kəsə məlumdur ki, 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artmış, cənab prezidentin təşəbbüsü ilə 20-dən çox hərbi zavod yaradılmış, bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunaraq nəinki ordumuzun potensialı gücləndirilmiş, eyni zamanda hərbi məhsullarımızın ixrac olunmasına da başlanılmışdır. Bununla bərabər, xarici ölkələrdən ən müasir zirehli texnikalar, gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, döyüş təyyarələri, nəqliyyat vasitələri, helikopterlər, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri, eləcə də digər texnika və silahlar alınmaqla Silahlı Qüvvələrimizin maddi-texniki bazası daha da gücləndirilmişdir". Yuxarıda qeyd olunduğu kimi, bütün bunlar fonunda Ermənistanda tamamilə əks proses qeydə alınır. Məsələ ilə bağlı Ermənistanın "1-in.am" portalı yazır: "Çox təəssüf ki, ordu ilə bağlı ciddi problemlər davam edir. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Paşinyan çox vədlər yağdırdı və bu gün fərqli vəziyyət müşahidə olunur. Məsələn, orduda qeyri-döyüş şəraitində əsgər ölümləri azalmayıb. İqtisadi sahədə geriləmə ordunun təminatında ciddi problem yaradır. Paşinyanın ordu və digər müstəvidə vədlərinin reallıqdan uzaq olduğunu dərk etmək üçün uzun zamana ehtiyac yox idi. Bu gün hökumətin fəaliyyətini qanedici hesab etmək çətindir. Bu gedişlə insanların iqtisadi və sosial həyatda dəyişiklikləri hiss etməsi üçün nə qədər zamanın tələb olunacağı hələ sual olaraq qalır. Hakimiyyət dəyişikliyindən əvvəl Paşinyan çox şey vəd edirdi. Amma ciddi dəyişən nəsə yoxdur. Bu durumda əsgər anarlarının artan etirazları ordu ilə bağlı vədlərin də yarımçıq qaldığını göstərir. Yenə yüksək rütbəli zabitlər ordu hesabına böyük gəlirlər əldə edir, korrupsiya çiçəklənir, döyüş qabiliyyəti aşağı düşür. Bu isə Azərbaycana yeni savaşa başlamaq üçün əla fürsət yaradır. Amma yeni savaş erməni tərəfinə aprel döyüşləri ilə müqayisədə daha böyük məğlubiyyət gətirə bilər". Digər erməni mətbu orqanı olan "İravnuk" qəzetinin yazdığına görə isə, Azərbaycanın hərbi potensialının günü-gündən güclənməsi Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlar tezliklə nəticə verməyəcəyi təqdirdə rəsmi Bakının güc variantına əl atma ehtimalını xeyli artırır.

Qəzet yazır ki, hazırda həm say, həm də maddi təminat baxımından Azərbaycan Silahlı Qüvvələri çox uğurlar qazanıb. Bu isə hərbi əməliyyatlara başlanacağı halda nəticəyə təsir edən əsas faktor kimi qiymətləndirilir.

Güc amili, demoqrasiya ilə yanaşı, Azərbaycanın diplomatik müstəvidə də son illərdə biri-birinin ardınca əldə etdiyi nailiyyətlər, işğal siyasətinin ifşa olunması istiqamətində atılan addımlar Ermənistanın mövqeyini daha zəif hala gətirir. İqtisadi müstəvidə yaranan böyük fərq Azərbaycanın Ermənistan üzərində üstünlüyünü daha da artırır. Məhz bütün bunlar fonunda Qarabağ münaqişəsinin yenidən alovlanması Ermənistan üçün yeni fəlakətlərin başlanğıcı sayılır. Aydındır ki, münaqişənin dinc müstəvidə həllinə nail olunmayacağı halda Ermənistanın bu fəlakətlərlə üzləşməsi qaçılmaz olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistanda Tələt Paşanın qatilinin heykəli Türkiyədə böyük etirazlar doğurub

## *Vaqif Abışov: "Hesab edirəm ki, TÜRKSOY bu məsələdə aktiv olmalıdır"*

**Bütün dünyanın faşizmdən imtina etdiyi və faşizmə qarşı mübarizə apardığı dönəmdə ermənilərin faşistlərə və onların əlaltılarına rəğbət bəsləməsi açıq şəkildə özünü göstərir. Faşistlərə heykəl ucaltmaqla yanaşı, ermənilər türklərin qatili olan canilərə də heykəllər ucaldırlar.**

Məlum olduğu kimi, Ermənistanın Şirak şəhərinin Miralik qəsəbəsində türk generalı, Osmanlı İmperiyasının daxili işlər naziri Tələt Paşanın qatili, daşnak Soqomon Teyliryanın heykəli ucaldılıb. Daşnaka qoyulan heykəl ciddi müzakirələrə və narazılıqlara səbəb olub. Müzakirələrə və narazılıqlara səbəb isə Teyliryanın ayağının altında Tələt Paşanın kəsilmiş başının əks olunmasıdır.

Heç şübhəsiz ki, bu mənzərə insanlığa sığmayan bir haldır və vəhşiliyin göstəricisidir.

Sözügedən heykəldə əks olunanlar bu gün Türkiyədə ciddi etirazlara, narazılıqlara səbəb olub.

Onu da vurğulayaq ki, bu heykəl yeni deyil, bir neçə il bundan öncə, qondarma "erməni soyqırımı"nın 100-cü ildönümü ərəfəsində, daha dəqiq desək, 2015-ci ilin 23 aprelində ucaldılıb.

Türkiyə rəsmiləri, tarixçiləri və sadə vətəndaşları daşnak suiqəsdçinin qəhrəmanlıq simvolu kimi dünyaya tanıtdırılmasını pisləyiblər.

Sosial elmlər üzrə tədqiqatçı, professor Metin Yıldırım Azərbaycan mətbuatına açıqlamasında deyib ki, son günlərdə insanların etirazına səbəb olan heykəldə Tələt Paşanın kəsilmiş başı təsvir edilib: "Təəssüf ki, bu addım kin və nifrət dolu mesaj verməkdədir. Tələt Paşanın qatilinin heykəlini bu şəkildə hazırlayan Ermənistan heç bir şey qazana bilməz. Ermənilər bu addımı atmaqla nə qədər qəddar olduqlarını və bəsit təfəkkürlə qərarlar qəbul etdiklərini ortaya qoyurlar. Onlar hesab edirlər ki, Tələt Paşa, Ənvər Paşa və Camal Paşa "İttihad və Tərəqqi" hərəkatını quraraq o zamanlar Anadolu torpaqlarında yaşayan ermənilərin Suriyaya göndərilməsini əmr edən insanlardır. Ermənilər bu qərarı sürgün olaraq qiymətləndirsələr də, əslində, belə deyil. Həmin vaxtlar ermənilərin xəyanətkar hərəkətlərini görən "İttihad və Tərəqqi" hərəkatının rəhbərliyi onları öz əsgərləri ilə birlikdə Suriyaya göndərir. Çünki ermənilər səhərlər özlərini dost mövqeyində göstərdikləri halda, axşamlar düşmən cəbhəsinə keçir və xəyanət edirdilər. Anadoludan kənarda yerləşdiyindən, ermənilərin Suriyaya göndərilməsi əmri verilir. Azərbaycana gedən ermənilərin əksəriyyəti Anadoluda yaşayan ermənilər olub".

Onun sözlərinə görə, "Daşnaksütyun" köç sırasında ölən ermənilərin intiqamını almaq üçün "Nemesis" (yunan mifologiyasında intiqam mələyi deməkdir) əməliyyatı keçirir: "Nəticədə muzdlu qatil Soqomon Teyliryan Almaniyanın Berlin şəhərində Tələt Paşanı evindən çıxarkən güllə ilə qətlə yetirir. Polislər qatili həbs edir və Teyliryan "sürgün"də çox acılar çəkdiyini, hətta bacılarının da köç sırasında öldüyünü deyir. Ancaq sonradan onun söylədiklərinin tamamilə yalan olduğu ortaya çıxır. Belə ki, S.Teyliryanın oğlu 2015-ci ildə Almaniyada verdiyi müsahibə zamanı atasının "sürgün" zamanı Serbiyada olduğunu və bibisinin isə olmadığını açıqlayır".

Professor bildirib ki, bu heykəlin qoyulması Xocalıda ermənilərin törətdikləri soyqırımla eynidir: "Biz ermənilərin Xocalıda insanları nə qədər qəddarlıqla qətlə yetirdiklərini gördük. Fikrimcə, onlar öz uşaqlarına türklərə hiss etdikləri kin və nifrəti aşılamaq üçün belə bir yolu seçiblər. Bunu qismən də olsa həyata keçirə biliblər. Bizim istək və tələbimiz bu heykəlin tezliklə götürülməsidir. XXI əsrdə belə nifrət dolu heykəllərin yeri yoxdur. Ermənistan hökuməti səhvini anlayıb heykəli bir an öncə qaldırmalıdır".

İstanbul Universitetinin tarix müəllimi, professor Halil Bal isə bildirib ki, bu, türkləri təhqir etmək üçün hazırlanmış bir abidədir və ən qısa zamanda götürülməsi zəruridir: "Dövlətimiz bu işə müdaxilə etməli və insanlığa sığmayan abidənin çox böyük səhv olduğunu görən hər kəs buna qarşı çıxmalıdır. Tələt Paşa Osmanlının ən müdrik dövlət xadimlərindən biri olub. O, Türkiyəni I Dünya Müharibəsində və ən çətin zamanlarında mükəmməl şəkildə idarə edərək qoruyub saxlayıb. Bir qatilə abidə ucaltmaq, əslində, Ermənistan hökumətinin ən böyük səhvidir. Bu əməl onların gənclərinə də yaxşı örnək deyil. Başqa sözlə desək, bu, cinayətə haqq qazandırmaq və terrorizmi alqışlamaqdır. Onlar anlamalıdırlar ki, bu cür addımlar çıxış yolu deyil. Ermənilər qonşuluq münasibətlərinə və başqa ölkələrin tarixinə böyük hörmətsizlik edirlər. Ona görə də bu əməllərindən əl çəkmələri lazımdır. Türk dövlətləri əl-ələ verib bu heykəlin götürülməsi üçün birlik nümayiş etdirməlidirlər. Yaxın keçmişdə ASALA terror təşkilatı 40-dan çox diplomatımızı qətlə yetirib. Dünya ədalətsizliyə göz yummamalı, terroru və kini yayan dövlətin layiqli cəzası verilməlidir".

Etirazların günügündən gücləndirilməsi səbəbindən Tələt Paşanın qatilinə ucaldılan abidənin götürülməsinə nail olmaq mümkündürmü?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, daşnaka ucaldılan heykəllə bağlı etirazlar yalnız Türkiyə və Azərbaycan tərəfindən deyil, bütövlükdə, Türk dünyası tərəfindən edilməlidir. O hesab edir ki, Ermənistan hökumətinin daşnak S.Teyliryana heykəl ucaltması Türk dünyasına vurulan zərbədir. Onun sözlərinə görə, TÜRKSOY bu abidənin götürülməsi istiqamətində ciddi tədbirlər görməli, beynəlxalq aləmə müraciətlər ünvanlamalıdır. "Doğrudan da bu, olduqca ciddi məsələdir və son illər ən çox müzakirə edilən mövzudur. Bu heykəlin qoyulması ermənilərin türklərə qarşı ənənəvi patoloji nifrətindən irəli gəlir. Ermənistan tərəfindən türklərə qarşı bu nifrət sönməyəcək. Baxmayaraq ki, bu gün 70 min Ermənistan vətəndaşı Türkiyədə işləyir, evinə çörək aparır, Türkiyənin



*"Bütün Türk dünyası həmrəylik göstərib beynəlxalq qurumlardan tələb etməlidir ki, Ermənistan daşnak Soqomon Teyliryanın heykəlini götürsün"*

bu humanist əməli heç zaman Ermənistan tərəfindən təqdir edilmir. Əksinə, Türkiyəyə qarşı daha çox nifrət yayır və beynəlxalq aləmdə nüfuzdan salmaq üçün addımlar atılır. Ermənistanda daşnak S.Teyliryanın heykəlinin ucaldılması da bu nifrətdən qaynaqlanır. Hesab edirəm ki, daşnakın heykəli ilə bağlı Türkiyə tərəfindən edilən etirazlar fayda verər. Beynəlxalq ictimaiyyət də açıq şəkildə görür ki, bu heykəllə bağlı Türkiyədə ciddi narazılıqlar var.

Beynəlxalq ictimaiyyət bilməlidir ki, Türkiyə belə məsələlərdə həssasdır və onun mübarizə ruhu, əzmi, nüfuzu var, Türkiyənin iradları haqlıdır. Dünya birliyi bu məsələni gündəmə gətirsə və bununla bağlı Ermənistana təzyiqlər göstərsə, heykəlin götürülməsinə müvəffəq olmaq olar. Nəinki Türkiyədə, Azərbaycanda, hətta Türk dünyasında da daşnak S.Teyliryanın heykəlinə qarşı etirazlar olmalıdır. Çox təəssüf ki, başqa türk dövlətləri bu məsələ ilə bağlı səslərini qaldırmır. Baxmayaraq ki, TÜRKSOY kimi təşkilat var və bu qurum türk dövlətlərini birləşdirir. Hesab edirəm ki, TÜRKSOY bu məsələdə aktiv olmalıdır. Çünki bu onun işidir. Bu heykəllə bağlı etirazını dünya birliyinə çatdırmalıdır ki, ortada real nəticə olsun. Bütün Türk dünyası həmrəylik göstərib beynəlxalq qurumlardan tələb etməlidir ki, Ermənistan daşnak S.Teyliryanın heykəlini götürsün. Bu reaksiya kəskin olmalıdır ki, nəticəsi də olsun. Çünki etirazlar güclənməsə, ermənilər yenə də öz əməllərini davam etdirəcəklər" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, ölkədə həyata keçirilən islahatlar fonunda hökumətin atdığı mühüm addımlardan biri də problemli kreditlərin həlli ilə bağlıdır. Çünki belə kreditlərlə bağlı yaranan problemin həlli bankların iqtisadiyyatda iştirak payını artırır və iqtisadi inkişafı sürətləndirir.**

# Banklar Prezidentin kursuna qarşı - ölkə yeni vaxtı ötmüş problemli kreditlər böhranına hazırlanır...

***Fikrət Yusifov:** "Bank sektoru öz xislətini dəyişməyincə, problemli kreditlərin azalması mümkün deyil"*




Kredit probleminin həlli istiqamətində hökumətin atdığı addımlar fonunda banklardan əsas gözləntisi isə onların real iqtisadiyyatda xüsusi çəkisinin artması ilə bağlıdır. Ancaq görünən budur ki, banklar hələ də hökumətin bu istiqamətdə onlara etdiyi güzəşt və yardımları düzgün qiymətləndirə bilmirlər.

Məsələ ondadır ki, bu il fevralın 28-də ölkə başçısı problemli kreditlər məsələsinin həllilə bağlı fərman imzalayıb. Həmin fərmanla vətəndaşların banklardakı 10 min dolladək problemli kreditlərinin qapanması üçün dövlət büdcəsindən 700 milyon manatdan artıq vəsait ayrılıb. Həmçinin, banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə güzəştli kredit verilməsi, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılan kreditin hesabına onların müraciəti əsasında 215 milyon dollar dəyərinədək xarici valyutada ifadə olunub, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızlar verilməsi reallaşdırılıb. Ancaq bütün bunlara baxmayaraq, banklar hələ də real sektora kredit ayırmaqda maraqlı deyillər. İstehlak kreditlərinə üstünlük verirlər. Bu da yenidən problemli kreditlərin artmasına rəvac verir. Artıq ölkədə vaxtı keçmiş kreditlərin məbləği bu il sentyabrın 1-nə 1 milyard 491,3 milyon manat təşkil edib. Bu, avqustun 1-i ilə müqayisədə 0,3 faiz çoxdur. Ümumiyyətlə, problemli kreditlər iyul ayından bəri yenidən artım nümayiş etdirir. Avqustun sonuna vaxtı keçmiş kreditlərin xüsusi çəkisi 10,8 faiz olub. Hökumətin müdaxiləsindən sonra problemli kreditlərin həcmi azalsa da, indi bankların kredit siyasəti əvvəlki kimi artıma rəvac verir. Belə vəziyyət həm bankların özləri, həm də iqtisadiyyat üçün ciddi təhdidlər yaradır. Bir növ, banklar Prezidentin kursuna qarşı gedərək ölkədə yenidən vaxtı keçmiş kreditlərin artmasına səy göstərirlər.

## "Banklar iqtisadiyyatın inkişafına yardım etmirlər"

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, banklar bununla yanlış kredit siyasəti həyata keçirirlər: "Bu da, təbii ki, yaxşı bir hal deyil. Prezidentin qəbul etdiyi qərarlar əhalinin problemli kreditlər məsələsinin həllinə yönəlib. Xüsusilə də xarici valyutada götürülən kreditlərin məzənnə fərqinin ödənilməsi ilə bağlı qərar verildi. Nəticədə əhalinin kredit yükü xeyli yüngülləşdi. Eyni zamanda, bu qərar bank sektoruna çox ciddi dəstək oldu. Bu o deməkdir ki, dövlət bütün səviyyələrdə bank sektorunun ayaqda olmasını istəyir. Bunun üçün əlindən gələni edir. Ancaq bank sektoru bunun qarşılığında üzərinə düşən vəzifələri yerinə yetirmək istəmir. Bu onu göstərir ki, ölkədəki bank sektoru intizamsız bir əhval-ruhiyyəyə köklənib. Bu nədən ibarətdir? Bu ondan ibarətdir ki, banklar ən asan yollarla daha çox qazanc əldə etmək yolunu seçiblər. Bununla hardasa kassa-hesablaşma funksiyasını yerinə yetirərək və bir də lombard ruhlu kreditlər verərək vəzifələrini bitmiş hesab edirlər. Prezident dəfələrlə bildirib ki, bank sektoru iqtisadiyyatın inkişafına kömək etməlidir. Çox təəssüf ki, bunlar baş vermir. Banklar iqtisadiyyatın inkişafına yardım etmirlər.

Banklar bahalı və qısamüddətli istehlak xarakterli kreditlərə üstünlük verirlər. Bu da problemli kreditlərin yenidən artmasına stimul verir. Deməyim odur ki, bank sektoru öz xislətini dəyişməyincə, problemli kreditlərin azalması mümkün deyil. Problemli kreditlər daha da artacaq. Təəssüflər olsun ki, bu baş verir".

***Vidadi ORDAHALLI***

**Azərbaycanda bəzi banklarda 100 dollarlıq əskinasların qəbulu ilə bağlı problem yaranıb. Söhbət 1993-cü ilə qədər tədavülə buraxılan əskinaslardan gedir. Banklar həmin pul nişanının dövriyyədən çıxarıldığını iddia edərək qəbul etmirlər. Məsələni dəqiqləşdirmək üçün banklarla əlaqə saxladıq.**

# Bankların "dollar üsyanı" - 93-cü ilə qədərki dollar əskinasları niyə qəbul edilmir...



*"**AtaBank**": "Qəbul olunan hər bir əskinas mütləq xüsusi aparat vasitəsilə yoxlanılır, vəsait istifadəyə yararsız vəziyyətdədirsə, o zaman həmin pul qəbul olunmur"*

***Maliyyə Bazarlarına Nəzarət Palatası:** "1993-cü il emissiyası olan ABŞ dolları əskinasları banklar tərəfindən qəbul edildikdən sonra digər müştərilərə təkrar satıla bilmir"*

***Natiq Cəfərli:** "Azərbaycanda fəaliyyət göstərən banklar da dövriyyəsinə məhdudiyyət qoyulmayan pul əskinaslarının qəbulunda problem yaratmamalıdırlar"*

"AtaBank"ın ictimaiyyətlə əlaqələr şöbəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, qəbul olunan hər bir əskinas mütləq xüsusi aparat vasitəsilə yoxlanılır: "Əskinas istifadəyə yararsız vəziyyətdədirsə, o zaman həmin vəsait qəbul olunmur. İstifadəyə yararlı olduğu aparat vasitəsilə təsdiq olunarsa, onun hansı ildə tədavülə buraxıldığı önəmli deyil".

Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) mətbuat xidməti məsələ ilə bağlı verdiyi açıqlamada qeyd etdi ki, bunun səbəbi müştərilərin banklardan bu əskinasları götürməməsidir: "1993-cü il emissiyası olan ABŞ dolları əskinasları banklar tərəfindən qəbul edildikdən sonra digər müştərilərə təkrar satıla bilmir. Banklarda apardığımız araşdırmada məlum olub ki, bunun səbəbi müştərilərin banklardan bu əskinasları götürməməsidir. Bu vəsaitlərin həcmi də çox olmadığından, nağd formada xarici ölkəyə daşınması daşınma xərcləri ilə əlaqədar effektiv deyil. Bundan əlavə, Azərbaycan Respublikasının Mərkəzi Bankı da, öz növbəsində, banklardan xarici valyuta qəbul etmir. Nəticədə 1993-cü ilin emissiyası olan əskinaslar istifadə edilə bilmədiyi üçün banklarda "ölü" vəsaitə çevrilir. Qeyd olunanlar nəzərə alınaraq, banklar tərəfindən köhnə tarixli emissiya olunmuş əskinaslar qəbul edilmir".

İqtisadçı Natiq Cəfərli isə bildirdi ki, Amerika qanunvericiliyində əskinasların dövriyyəsilə bağlı qadağalar mövcud deyil: "Yeni əskinaslar buraxıldıqca, Amerika Mərkəzi Bankı köhnələri dövriyyədən çıxarmadan əvəzləyir. Hətta vətəndaşların əlində 1920-1930-cu illərdə buraxılmış əskinaslar var ki, Amerika Mərkəzi Bankı onları qəbul edir. Yeni əskinasların dövriyyədə olma müddətilə bağlı məhdudiyyət yoxdur. Bu baxımdan, Azərbaycanda da köhnə dollarla bağlı eyni qaydalar tətbiq olunur. Köhnə pul vahidləri dövriyyədən çıxarılmayıbsa, onların banklar tərəfindən qəbulunda məhdudiyyət ola bilməz, istər xarici valyuta olsun, istərsə də yerli valyuta. Azərbaycanda da yeni nişanlamalarla 10 manatlıq əskinaslar buraxılıb. Yeni 10 manatlıqlarla bərabər, köhnə 10 manatlıqlar da dövriyyədədir. Mərkəzi Bank da açıqlama verdi ki, bu pul nişanları məhdudiyyətsiz olaraq dövriyyədədir. O cümlədən, Azərbaycanda fəaliyyət göstərən banklar da dövriyyəsinə məhdudiyyət qoyulmayan pul əskinaslarının qəbulunda problem yaratmamalıdırlar. Amerika dolları ilə bağlı məhdudiyyət yoxdur".

***Günel CƏLİLOVA***

# Azərbaycana bal idxalını dayandırmaq üçün ciddi əsaslar yetişib

**"Azərbaycana bal idxalının qarşısını almaq niyyətindəyik". Bunu Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov media nümayəndələrinə açıqlamasında bildirib. Onun sözlərinə görə, bununla bağlı artıq ölkə rəhbərliyinə də məktub ünvanlanıb: "Dünya təcrübəsində belə bir tendensiya var.**

Daxili istehsal bazarını qorumaq üçün idxala məhdudiyyət qoyulur. Türkiyə və İsrail kimi ölkələr belə bir addım atdıqdan sonra onlarda yerli istehsalda geniş inkişaf müşahidə olundu. Hətta qardaş ölkədə o qədər inkişaf qeydə alındı ki, onlar artıq dünya ikincisidirlər. Biz də bunu edə bilsək, Azərbaycanda arıçılıq sürətlə inkişaf edəcək".

Məlumat üçün bildirək ki, ötən il Azərbaycanda 3 min ton bal istehsal olunub. Builki istehsal isə artıq 6 min tona yaxınlaşır. Əvvəlki illərdə hər arı ailəsindən 8-10 kiloqram bal istehsal olunurdusa, bu il orta məhsuldarlıq 15 kiloqrama çatır. Azərbaycan, həmçinin, artıq xaricə bal ixracını da həyata keçirir. Belə ki, bu il Yaponiyaya 8 ton, Birləşmiş Ərəb Əmirliklərinə 3, Dubaya isə 4 tona yaxın bal göndərilib. Hazırda isə bu istiqamətdə İordaniya ilə də danışıqlar aparılır.

Maraqlıdır, bal idxalının qadağan edilməsi ölkə iqtisadiyyatına necə təsir edəcək?

Arıçılar Assosiasiyasının mətbuat xidmətinin rəhbəri Elvin Bayramlı bizimlə söhbətində qeyd etdi ki, bal idxalının qadağan edilməsi indiki halda mümkündür: "Ölkəmizdə son illər arı sayında ciddi artımlar olub. Eyni zamanda, hər arı ailəsinə düşən balın həcmi də artır. Bu fonda, Azərbaycan Arıçılar Assosiasiyasının apardığı araşdırmalar nəticəsində məlum olur ki, cari ildə ölkəmiz bala olan tələbatı yerli istehsal hesabına tam şəkildə ödəmək gücündədir. Arı ailələri başına məhsuldarlır hardasa 15 kiloqrama yaxın olub. Buna görə də assosiasiyanın idarə heyəti toplanaraq peşəkar arıçıların dəstəyilə qərara gəldik ki, Azərbaycana idxal dayandırılmalıdır. Bunun üçün dünya təcrübəsində nümunələr də var, Türkiyə və İsrail artıq bal idxalına son qoyublar.



*Rəşad Həsənov: "Hər hansı bir məhsul növü üzrə idxalın tamamilə dayandırılması və yaxud qadağan edilməsi bazar şərtləri daxilində yolverilməzdir"*

*Elvin Bayramlı: "Bal idxalının qadağan edilməsi indiki halda mümkündür"*

Məlumat üçün bildirim ki, Türkiyə artıq həm arı sayı, həm də bal ixracına görə dünyada ilk beşlikdə qərarlaşıb. İsrail hətta səhra ölkəsi olsa da, bal ixracatçısına çevrilib. Bu nümunələrdən dolayı assosiasiyamız da bal idxalına son qoymaq üçün addım atmaq qərarına gəldi. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanladıq və burada bal idxalının dayandırılmasını xahiş etdik. Analoji təkliflə Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi qarşısında da çıxış etdik. Artıq Kənd Təsərrüfatı Nazirliyi məsələ ilə bağlı açıqlama verərək bildirdi ki, bal idxalının dayandırılması məsələsi araşdırılır. Güman ki, sonda bu istiqamətdə qərar veriləcək. İdxalın dayandırılması daxildə tələbata cavab verən səviyyədə bal istehsal edilməsilə bağlıdır. Cari il üçün istehsal artıq 6 min tona yaxınlaşır. Hətta bal ixracına da başlamışıq. Artıq Yaponiyaya, BƏƏ-yə 50-100 ton həcmində bal ixracı ilə bağlı danışıqlar da gedir. Bal ixracının həyata keçməsilə ölkədəki böyük şirkətlər onun ixracına üstünlük verəcək, orta və kiçik fermerlər isə daxili tələbatın ödənilməsində mühüm rol oynayacaqlar. Yəni bütün proses onu deməyə əsas verir ki, ölkədə artıq tələbatı ödəməyə, hətta ixraca yönəltməyə imkan verən səviyyədə bal istehsal olunur. Ona görə də artıq baln idxalına ehtiyac görmürük. Bu səbəbdən də istəyirik ki, onun idxalına son qoyulsun"

İqtisadçı-ekspert Rəşad Həsənov qeyd etdi ki, bazarda rəqabət mühiti formalaşdırılmalıdır: "Yerli istehsalın müdafiə olunması baxımından, bir sıra hallarda, dövlətlər idxal olunan məhsulların müəyyən formada məhdudlaşdırılması istiqamətində addımlar atırlar. Həmçinin, bəzi hallarda qiymət rəqabətliliyini artırmaq məqsədilə məhsulların rüsumlarının artırılması kimi alətlərdən də istifadə edilir. Ona görə də bu başadüşüləndir. Amma hər hansı bir məhsul növü üzrə idxalın tamamilə dayandırılması və yaxud qadağan edilməsi bazar şərtləri daxilində yolverilməzdir. Çünki, əks halda, daxili bazarda qiymətlər kəskin artacaq. Bu isə dolayı yolla istehlakın və alıcılıq qabiliyyətinin aşağı düşməsinə gətirib çıxara bilər. Azalan istehlak fonunda istehsal da geriləməyə başlayır. Bütün bunlar dövrü proseslərdir. Ona görə də belə halların qarşısını almaq məqsədilə bazarda rəqabət mühitinin formalaşdırılması vacib şərtlərdəndir.

Əsas məsələ yerli istehsalçıların bazarda rəqabət apara bilməsidir. Eyni zamanda, hökumət istehsalın qiymət rəqabətini təmin etmək məqsədilə rüsum siyasətini yenidən gözdən keçirə bilər. Balın idxalı zamanı tətbiq edilən rüsum 15 faiz dərəcəsindədir. Bu da maksimum rüsum səviyyəsidir. Ona görə də hər hansı rüsum alətindən istifadə imkanımız məhduddur. Belə olan təqdirdə, nəzarət mexanizmləri gücləndirilməlidir. Aşağı keyfiyyətli bal məhsullarının idxalının qarşısı alına bilər. Bu üsul yerli istehsal üçün daha əlverişli şərait yarada bilər".

*Günel CƏLİLOVA*

# Dövlət Əməyin Mühafizəsi Fondu yaradıldı - sonra nə baş verəcək...

## Vüqar Bayramov: "Bundan ən çox faydalanan məhz işçilər olacaq"

**Nazirlər Kabinetinin qərarı ilə Dövlət Əməyin Mühafizəsi Fondu yaradılıb. Qərara əsasən, Dövlət Əməyin Mühafizəsi Fondunun Əsasnaməsi Dövlət Əməyin Mühafizəsi Fondunun idarə olunması və onun vəsaitlərindən istifadə edilməsi qaydalarını tənzimləyir. Fondun məqsədi ölkədə əməyin mühafizəsi sahəsində vahid dövlət siyasətinə uyğun olaraq həyata keçirilən əməyin mühafizəsi tədbirlərinə maddi-texniki dəstək verməkdən ibarətdir.**




Fondun idarə edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

1. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanı həyata keçirən sığortaçıların könüllü ödəmələrindən;

2. müəssisələrin və vətəndaşların könüllü ödəmələrindən və başqa ödəmələrdən. Fondun vəsaiti nazirliyin büdcədənkənar xüsusi xəzinə hesabında yığılır və nazirlik bu vəsaitlər üzərində sərəncam verir.

Fondun vəsaitlərindən istifadə nazirlik tərəfindən hər il üçün təsdiq olunan gəlir və xərclər smetası əsasında həyata keçirilir. Maliyyə ilinin sonuna fondun hesabında qalan xərclənməmiş vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir və bu əsasnaməyə uyğun olaraq istifadə edilir. Fondun vəsaiti Azərbaycan manatı və xarici valyutalarla formalaşdırılır. Fondun vəsaiti əsasnamədə nəzərdə tutulmayan məqsədlərə istifadə edilə bilməz.

Maraqlıdır, bəs ekspertlər sözügedən fondun yaradılmasının əhəmiyyətini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramov buna

*"Yeni fondun yaradılması bu sahədə əməyin mühafizəsi standartlarının tətbiq edilməsinə və maddi-texniki bazanın gücləndirilməsinə imkan verəcək"*

bir neçə aspektdən yanaşdı. Onun fikrincə, yeni fondun yaradılması bu sahədə mobilizasiya olunmuş siyasətin həyata keçirilməsi baxımından çox vacibdir: "Nəzərə almaq lazımdır ki, özəl sektorda əməyin mühafizəsinə ciddi ehtiyac var. Bununla belə, özəl sektorda əməyin mühafizəsi ilə bağlı institusionalaşmış qaydaların tətbiqinə ehtiyac var. O baxımdan yeni fondun yaradılması bu sahədə əməyin mühafizəsi standartlarının tətbiq edilməsinə və maddi-texniki bazanın gücləndirilməsinə imkan verəcək. Çünki əmək fəaliyyəti üçün şəraitin yaxşılaşdırılması ilə yanaşı, əməyin özünün mühafizəsi və standartların tətbiq edilməsinə də ehtiyac var. Standartların tətbiq edilməsi, nəticə etibarilə, bu sahədə həm əmək hüquqlarının müdafiəsi, həm də mövcud infrastruktur daxilində yeni əmək münasibətlərinin formalaşması baxımından vacibdir. Təbii ki, yeni standartların tətbiq edilməsi əməyin mühafizəsi ilə bağlı imkanları genişləndirəcək. Bu sahədə mövcud vəziyyətin daha da yaxşılaşmasına xidmət edəcək. O üzdən, güman edirəm ki, belə bir fondun yaradılmasından ən çox faydalanan məhz işçilər olacaq. Söhbət ölkədəki əmək qüvvəsindən gedir".

***Vidadi ORDAHALLI***

# Bakının naviqator xəritəsində ciddi problemlər aşkarlanıb

## İlqar Hüseynli: "Dəyişikliklər elektron xəritə sistemində yerləşdirilmədiyi üçün sürücülər yeni ünvanlarla bağlı məlumata malik olmurlar"

**Paytaxtımız günü-gündən böyüyür, dəyişir. Heç şübhəsiz ki, bu dəyişikliklər yeni ünvanların, yaşayış yerlərinin yaranmasına səbəb olur. Bu da sirr deyil ki, son zamanlar Bakıda bir sıra ünvanlarda dəyişikliklər edilib. Əlbəttə, bunlar yaxşı hal olsa da, müəyyən problemləri də ortaya çıxarır.**



Bu gün Bakının ciddi problemlərindən biri naviqator xəritəsi ilə bağlıdır. Hazırda həm taksi sürücülərinin, həm də digər vətəndaşların geniş istifadə etdiyi naviqator xəritələrində ciddi nöqsanlar mövcuddur. İstifadəyə verilən naviqator xəritələrində, demək olar ki, əksər ünvanlar dəqiq göstərilmir. Halbuki, şəhərin nəinki binaları, eləcə də kiçik evləri belə bu naviqator xəritəsində əks olunmalıdır. Lakin biz bunu görə bilmirik. Bir çox hallarda taksidən istifadə edərkən taksi sürücüləri giley-güzar edirlər ki, naviqatorda ünvanlar səhv göstərildiyi üçün yolu yanılırlar. Taksi sürücüləri bildirirlər ki, bu gün paytaxtda dəyişdirilən ünvanlar naviqator sistemində əks olunmur. Bu da nəinki onların, bütövlükdə, avtomobil idarə edənlərin hər birinə ciddi problemlər yaradır. Taksi sürücüləri qeyd edirlər ki, Bakının naviqator sisteminə nəzarət edən qurumlar bu sahəyə başdansovdu yanaşdıqları üçün mövcud vəziyyət yaranıb.

Məsələni şəhər edən sosial sahə üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, bu problemin aradan qaldırılması üçün əlaqədar qurumlar kompleks tədbirlər həyata keçirməlidirlər: "Bu problemin mövcud olmasının səbəbi bir amillə bağlı deyil, bu, bir neçə məsələ ilə əlaqədardır. Bakıda Nəqliyyatın İntellektual İdarəetmə sisteminin bazasında yerləşdirilən informasiyalar həmin o xəritə əsasında hazırlanır. Burada keyfiyyətlə bağlı ciddi problemlər olduğu üçün, biz onunla qarşılaşırıq. Digər tərəfdən, bilirsiniz ki, paytaxtımızda çox sürətli tikinti bumu yaşanır. İstər yaşayış binalarının, istərsə də fərdi evlərin tikilməsi ilə əlaqədar olaraq yollarda ciddi problemlər var. Bu gün bir prospektdən keçirsən, səhərisi gün oradan keçəndə görürsən ki, yeni binalar, ictimai iaşə obyektləri, ticarət evləri inşa edilib və onların heç biri zamanında həmin elektron xəritə

*"...bizim şəhərsalmada mövcud olan nöqsanlar naviqator xəritə sisteminə də ciddi təsir göstərir"*

sistemində yerləşdirilmir. Yəni problemin bir tərəfi buradan qaynaqlanır. Dəyişikliklər elektron xəritə sistemində yerləşdirilmədiyi üçün sürücülər yeni ünvanlarla bağlı məlumata malik olmurlar və bu ünvanları naviqator sistemində görə bilmirlər. Hesab edirəm ki, bu, Bakının baş planı ilə əlaqədar işlər görən, şəhərin xəritəçəkmə və layihələndirmə işləri ilə məşğul olan institutların səhlənkar münasibətilə bağlı olan məsələdir".

İ.Hüseynlinin qeyd etdiyinə görə, Bakıda "Xutor", Alatava və digər elə yaşayış massivləri var ki, ünvanı olmayan, yaxud ünvanı dəqiq göstərilməyən yeni-yeni tikintilər, gecəqondularla da bağlı ciddi problemlər yaşanır. "Bu məndə bizim şəhərsalmada mövcud olan nöqsanlar naviqator xəritə sisteminə də ciddi təsir göstərir. Bu problemin həlli təkcə İntellektual İdarəetmə Mərkəzi ilə bağlı deyil. Burada digər qurumlarla da əlaqəli məsələlər var. Düşünürəm ki, bu problemin həllinə nail olunması üçün Bakı Şəhər Nəqliyyat Agentliyi də işlər görməli, problemin üstünə getməlidir. Bununla bağlı kompleks tədbirlər görülməlidir. Bu istiqamətdə fəaliyyət göstərən qurumlar bir-birilə qarşılıqlı əməkdaşlıq etməlidirlər ki, problem kökündən öz həllini tapsın. Yeni binalar, yeni ticarət mərkəzləri tikilərkən şəhərsalma və infrastrukturla bağlı xəritəçəkmə institutu məlumatlar verməlidir, eyni zamanda, Bakı Nəqliyyat Agentliyinin bu məsələdən xəbəri olmaldır" - deyə İ.Hüseynli vurğuladı.

***İradə SARIYEVA***

**Gündəmdə tez-tez müzakirə olunan, həllini tapmayan vacib problemlərdən biri də kitabların qiymətləridir. Xüsusən də ali məktəb dərsliklərinin satış qiymətinin yüksək olması tələbələrin haqlı narazılığına səbəb olur. Tələbələr kitabların baha olduğunu bildirirlər. Onlar qeyd edirlər ki, dərsliklərin yüksək qiymətə satılması bir sıra çətinliklər yaradır.**

# Ali məktəb dərslikləri ilə bağlı ağır problem - bahadır, internetdə yerləşdirilməsinə imkan verilmir, tələbələr çarəsizlikdə...



## *İlqar Orucov: "Ali təhsil müəssisələri üçün nəzərdə tutulan dərsliklərin qiyməti bahadır"*

Məlumdur ki, tələbələrin bir qismi kirayə mənzildə yaşayır. Aylıq kirayə pulu, gündəlik tələbatını ödəyən tələbə üçün yüksək qiymətə dərs vəsaitini almaq büdcəsinə təsir göstərir.

Ekspertlərin fikrincə, tələbələr üçün nəzərdə tutulan dərsliklərin qiymətində müəyyən güzəştlər olmalıdır. Necə ki, orta məktəblərdə dərsliklər şagirdlərə pulsuz verilir, eyni qayda universitetlərdə tətbiq oluna bilər. Bununla yanaşı, ali məktəb dərsliklərinin PDF variantı internetə yüklənə bilər. Dərs vəsaiti internetə yüklənərsə, şagird əlavə vəsait sərf etməz.

Mütəxəssislərin fikrincə, ali məktəb dərsliklərinin qiymətinin baha olmasının səbəbi müəllifin həmin vəsaiti öz vəsaiti hesabına hazırlatmasıdır. Qeyd edək ki, nəşr olunan kitabların tirajı da olduqca az olur və 500-1000 arası dəyişir. Həmin kitabların bir çoxu universitet kitabxanalarında olmadığından və satışda çətin tapıldığından, tələbələr məcbur olurlar ki, həmin kitabın surətini çıxarsınlar. Bu problem hər il semestr imtahanları ərəfəsində daha qabarıq nəzərə çarpır.

Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, ali məktəb dərsliklərinin qiymətinin baha olması aktual problemlərdən biridir: "Təhsil Nazirliyi yanında İctimai Şura olaraq ali məktəb dərsliklərinin satış qiymətinin yüksək olmasını diqqətdə saxlayacaq və bu məsələni təhsil nazirinin diqqətinə çatdıracağıq. Məlumdur ki, ali təhsil müəssisələri müəyyən sərbəstliyə malikdir. Bütün hallarda, Təhsil Nazirliyi mərkəzi icra orqanı olaraq dövlət təhsil siyasətini həyata keçirən qurumdur. Bu istiqamətdə Təhsil Nazirliyinin ali təhsil müəssisələri qarşısında tövsiyələri faydalı olar".

*"Dərsliklərin elektron variantı yaradılarsa, bu, dərsliklərin qiyməti məsələsinə çox ciddi təsir edər"*

Həmsöhbətimiz bildirdi ki, ali təhsil müəssisələri üçün nəzərdə tutulan dərsliklərin qiyməti bahadır: "Nəzərə almaq lazımdır ki, tələbələr dövlətin ən həssas təbəqələrindən biridir. Ölkə başçısı İlham Əliyev tələbələrə xüsusi diqqət və qayğı ilə yanaşır. Prezidentin qayğısı nəticəsində tələbə təqaüdləri, eyni zamanda, dövlət sifarişli yerlərin sayı artıb. Hesab edirəm ki, dərsliklərin qiyməti məsələsi də aidiyyəti qurumların diqqətində olacaq".

İ.Orucov hesab edir ki, ali təhsil müəssisələri dərslikləri tələbələrə verərkən vəsaitin satış qiyməti ilə bağlı müəyyən güzəştlər etməlidirlər: "Təhsil Nazirliyi ilə yanaşı, universitetlər, dərslik müəllifləri də bu məsələdə həssas olmalıdırlar. Ali təhsil dərslikləri ilə bağlı müəlliflərlə yanaşı, mətbəələr də müəyyən güzəştlər tətbiq etməlidirlər".

Ekspert onu da vurğuladı ki, tələbələrin rahatlığı üçün dərsliklərin elektron variantı hazırlanmalıdır. Dərsliklərin elektron variantı yaradılarsa, bu, dərsliklərin qiyməti məsələsinə çox ciddi təsir edər: "Dəsrliklərin elektron variantının hazırlanması tələbələri vəsait daşımaqdan xilas edəcək. Məlumdur ki, tələbələrin əksəriyyəti ictimai nəqliyyatdan istifadə edir. Dərsliklərin elektron variantı olarsa, tələbələr əlavə vəsait daşımaqdan xilas olarlar".

İ.Orucov hesab edir ki, ali təhsil ocaqlarının maddi durumu yaxşı səviyyədə olduğu üçün onlar tələbələrə dərs vəsaitini müəyyən güzəştlərlə verə bilərlər.

***Günel CƏLİLOVA***

---

**Azərbaycanda uzun müddətdir distant ali təhsilin tətbiq edilməsi gündəmdə olsa da, hələ heç bir universitet bu istiqamətdə addım atmamışdı. Halbuki, təhsil qanunvericiliyinə görə, həm ali, həm də orta təhsil sistemində distan təhsilin tətbiq edilməsi nəzərdə tutulur. Xeyli vaxtdır UNEC-n distant təhsillə bağlı layihə həyata keçirəcəyi gözlənilirdi.**

# Azərbaycan universitetlərində distant təhsilin ilk nümunəsi - UNEC təcrübəsi...



## *İlqar Orucov: "UNEC-in distant ali təhsil sahəsindəki təcrübəsi gənclərimizə yeni imkanlar açır və bu, əmək bazarı üçün yeni kadrların hazırlanmasına böyük şərait yaradır"*

Nəhayət, UNEC bu sahədə addım atdı və distant təhsilin ilk nümunəsini təqdim etdi.

Bildiyimiz kimi, sentyabrın 28-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş distant Çin dili kursları üzrə dərslərə başlanıb. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bununla əlaqədar universitetdə keçirilən təqdimat tədbirində iştirak edib.

Çin dilini öyrənməyə yeni başlayan azərbaycanlılar üçün nəzərdə tutulan dərslər 1,5 saat olmaqla həftədə 3 dəfə keçiriləcək. Distant təhsil üzrə təlimlər ödənişlidir. Sosial cəhətdən dəstəyə ehtiyacı olan şəxslərin təhsil haqları isə Heydər Əliyev Fondu tərəfindən qarşılanır. Dinləmək, danışmaq, oxumaq və yazmaq dərslərindən ibarət olan elementar səviyyəni bitirən iştirakçılar Çin dilinin ümumi qrammatik quruluşuna bələd olacaq, sadə fikir mübadiləsi aparmaq bacarığında olacaqlar. Üç ay davam edəcək proqram üzrə təlimlər işdən ayrılmadan distant formada keçiriləcək. Layihənin tərəfdaşları Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutu və Pekin Xarici Dillər Universitetidir. Proqramı müvəffəqiyyətlə bitirən iştirakçılara sertifikatlar veriləcək. Çin dilini öyrənən tələbələr Çində təqaüd proqramları ilə təhsil almaq şansı da əldə edirlər.

Distant təhsilin ilk nümunəsini dəyərləndirən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, belə bir mühüm addımın atılması olduqca əhəmiyyətlidir: "Bir neçə gün əvvəl sizinlə Azərbaycan ali təhsil sistemində distant təhsilin tətbiq edilməməsi səbəblərini müzakirə etdik. Onda da vurğulamışdım ki, artıq UNEC-də distant ali təhsillə bağlı layihə hazırlanıb. Çox sevindirici haldır ki, Azərbaycanda elm və təhsillə bağlı layihələri dəstəkləyən Heydər Əliyev Fondu kimi qurum mövcuddur. Heydər Əliyev Fondunun dəstəyilə UNEC-də distant təhsilə start verilməsinin ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Artıq distant təhsillə bağlı mərkəzin açılışı həyata keçirilib. Əslində, bu ali məktəbin təcrübəsi olduqca faydalıdır. Müasir çağırışlar fonunda, əlbəttə ki, bizim milli universitetlərimizin distant təhsil modelinə keçməsi və bu təhsil modelinin tətbiqi çox əhəmiyyətlidir. Ancaq məsələ bundan ibarətdir ki, distant təhsilin həyata keçirilməsi üçün komanda, buna imkan və şərait varmı? Təəssüf ki, bizim ali məktəblərin heç də hamısında bu imkan, bu şərait yoxdur. Ancaq UNEC-də xaricdə təhsil almış Azərbaycan gənclərindən ibarət bir komanda formalaşdırılıb və onların sayəsində bu ali məktəbin həyatında bir sıra yeniliklər nəzərə çarpmaqdadır. Hesab edirəm ki, UNEC-də fəaliyyətə başlayan distant təhsil modeli olduqca faydalıdır. Burada Çin bazarı üçün mütəxəssislər hazırlığına başlanması bizim üçün yeni imkanların açılması deməkdir. Çünki dünyanın əhali baxımından ən böyük ölkəsi olan, eyni zamanda da texnologiya nöqteyi-nəzərdən müasir qabaqcıl texnologiyaları mənimsəmiş, iqtisadiyyatının böyük hissəsi yeni texnologiyalara, innovasiyalara köklənmiş Çinlə əlaqələr vacibdir. Çindilli kadrların hazırlanması olduqca əhəmiyyətli və zəruridir. Həmçinin, bu o demək deyil ki, biz yalnız Çin bazarı üçün mütəxəssis hazırlayırıq. Çin dünyanın 5-də birini əhatə edir və əslində, Çin dili dünyanın heç bir populyar dilindən heç də geri qalmır. Çin dilinin öyrədilməsi Azərbaycan üçün çox vacibdir. Hətta mütəxəssislər tərəfindən belə fikirlər səsləndirilir ki, Çin dili gələcək dünyanın aparıcı dillərindən biri olacaq. UNEC-in distant ali təhsil sahəsindəki təcrübəsi gənclərimizə yeni imkanlar açır və bu, əmək bazarı üçün yeni kadrların hazırlanmasına böyük şərait yaradır".

*"UNEC-in bu addımı yeni çağırışlara cavab vermək baxımından da çox əhəmiyyətlidir"*

İ.Orucovun sözlərinə görə, UNEC-in bu təcrübəsindən başqa ali məktəblər də nümunə götürməlidirlər. O hesab edir ki, UNEC distant təhsilin miqyasını, əhatə dairəsini daha da genişləndirə bilər, çünki bu ali məktəbin buna potensial imkanları çatır. "UNEC distant təhsillə bağlı digər ixtisaslar üzrə də kadr hazırlığına başlaya bilər. Distant təhsil UNEC-in, eləcə də bu modelin tətbiq ediləcəyi digər ali məktəblərin nüfuzunu qaldıracaq. Bu yolla ali məktəblərimizə xarici tələbə axını güclənəcək. Xarici tələbələr nə qədər çox olsa, bizim ali məktəblərimiz dünyanın nüfuzlu ali məktəbləri ilə rəqabət mühitinə girəcəklər. UNEC-in bu addımı yeni çağırışlara cavab vermək, yeni çağırışlarla ayaqlaşmaq baxımından da çox əhəmiyyətlidir" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Azərbaycanda davamlı beynəlxalq teatr festivalları - teatrlarımız hələ yerində sayır...

**Son illər Azərbaycanda müxtəlif səpkili teatr festivalları keçirilir. Bu sırada həm yerli, həm də beynəlxalq miqyaslı teatr festivalları diqqəti çəkir. Əslində, bu festivallar teatrların inkişafına böyük təkan verməlidir. Beynəlxalq teatr festivalları həm dünya teatrları arasında əlaqələrin gücləndirilməsində, həm də yeniliklərin paylaşılmasında, müştərək layihələrin həyata keçirilməsində mühüm rol oynamalıdır.**

Çox təəssüf ki, bir neçə məqamı çıxmaq şərtilə Azərbaycanda keçirilən yerli və beynəlxalq teatr festivallarından teatrlarımız elə də faydalana bilmir. Bu festivallar nəticəsində gərək çoxdan Azərbaycan teatrları dünyada böyük nüfuz qazanaydı və bir sıra müştərək layihələrə imza ataydılar. Amma təəssüf ki, biz bunları görə bilmirik. Bəzi teatrlarda müştərək layihələr həyata keçirilsə də, sayı o qədər azdır ki, bütün bunları milli teatrın uğurları saymaq olmur. Doğrudur, bəzi rejissorlarımız keçmiş SSRİ məkanına aid olan respublikaların teatrlarında tamaşalar qoyur, bəzi aktyorlarımız həmin ölkələrin teatrlarında tamaşaya qoyulan əsərlərdə rol alırlar. Bu da çox zaman şəxsi əlaqələr müstəvisində baş verdiyi üçün elə də diqqəti cəlb etmir.

Halbuki, Azərbaycan teatrları hazırda dünyanın ən populyar teatrları ilə yan-yana durmalıdı. Çünki bizim teatr ənənələrimizin kökləri qədimdir və teatrlarımız təcrübəlidir. Azərbaycanda keçirilən beynəlxalq və yerli teatr festivalları teatrların inkişafına niyə müsbət təsir edə bilmir?

Xalq artisti Yasin Qarayev "Bakı-Xəbər"ə bildirdi ki, yerli və beynəlxalq teatr festivallarından teatrlarımızın elə də böyük uğur əldə edə bilməməsinin səbəbi həm teatr üçün yazan müəlliflər, həm də digər amillərlə bağlıdır. Y.Qarayevin sözlərinə görə, bu gün teatr üçün yazanlar, demək olar ki, yoxdur, vaxtilə teatrlar üçün əsər yazanların əksəriyyəti isə ya yazmır, ya da onların çoxu dünyasını dəyişib. Bundan başqa, sənətkarın bildirdiyinə görə, vaxtilə Azərbaycan teatrını təmsil edən ustad, müqtədir rejissor və aktyorların həyatdan köçməsi də teatrların zəifləməsinə, bu kimi festivallardan uğurlu nəticələr əldə edə bilməməsinə səbəb olub. "Bilirsiniz, gərək təqdim edilən əsər də, burada oynayan aktyorlar da, dramaturji material da, onun rejissura həlli də yüksək səviyyədə olsun ki, nəticə də qazanılsın. Bu ondan irəli gəlir ki, bizim teatrımızda olan müqtədir sənətkarlar birbirinin ardınca dünyalarını dəyişdilər. Onların vəfat etməsi nəticəsində teatrlarda böyük bir boşluq əmələ gəldi. Bizim teatrdan Yusif Vəliyev, Hüseynağa Sadıqov, Süleyman Ələsgərov, Sussana Məcidova, Firəngiz Şərifova, Solmaz Qurbanova kimi sənətkarlar getdi. "Azdrama"dan da, həmçinin, çox böyük sənətkarlar getdi, eləcə də digər teatrlardan. Bu da kino və teatra təsir etdi və bu sahələr laxladı. Zaman lazımdır ki, teatrlarımızda böyük sənətkarlar yetişsin. Aktyorluq elə bir sahədir ki, burada anadangəlmə istedadla yanaşı, sənətkara illərlə qazandığı təcrübə də lazımdır. Bu da illərlə toplanıb yığılır. Bu gün teatrlarda kifayət qədər istedadlı gənclər yetişir, zaman lazımdır ki, onlar yetişsinlər. Mütləq onlar yetişəcəklər. Teatrlarımızın beynəlxalq və yerli teatr festivallarından elə də böyük nəticə əldə etməməsi həm də dramaturji materialların, teatr üçün yazanların olmaması ilə bağlıdır. Vaxtilə Anar, Elçin, İsi Məlikzadə və başqaları teatrlar üçün maraqlı əsərlər yazırdılar. Amma indi yazmırlar. Anar müəllim də, Elçin müəllim də teatr üçün daha yazmır. Bəs kim yazmalıdır? Biz gözləyirik, yenə qayıdırıq Mirzə Cəlilə və digər klassiklərimizə. Mirzə Cəlilin yubiley ilidir. Onun "Dəli yığıncağı" əsərini Gənc Tamaşaçılar Teatrı hazırlayır, bizdən əvvəl "Azdrama" hazırlayıb. Bir əsər bir şəhərdə neçə teatrda oynanılmalıdır ki? Bu gün həm teatrlar üçün yazanların çox az olması, həm aktyorların çoxunun yüksək səviyyədə yetişməməsi bu kimi məsələlərə mənfi təsir göstərir" - deyə Y.Qarayev bildirdi.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, tanınmış aktrisa Zülfiyyə Eldarqızının sözlərinə görə, bizim bəzi teatrlarda sənətlə məşğul olunmadığı və onların festivallarda təqdim etdiyi tamaşaların sənətkarlıq baxımından aşağı səviyyədə olduğu üçün biz uğur qazana bilmirik. Azərbaycanda çox istedadlı aktyor və rejissorların olduğunu deyən Z.Eldarqızının bildirdiyinə görə, əsasən bizim rejissorların festivallara təqdim etdikləri tamaşalar beynəlxalq standartlara cavab vermir. "Son illər Azərbaycanda keçirilən yerli və beynəlxalq teatr festivalları, əslində, çox böyük əhəmiyyətə malikdir. Bizdə güclü teatrlar, güclü aktyor və rejissorlar da çoxdur. Hətta bizim dünya səviyyəli sənətkarlarımız var ki, onlar dünyanın istənilən ölkəsində tamaşa oynamağa qadirdirlər. Amma təəssüflər olsun ki, bəzi teatr rəhbərləri teatr festivallarına barmaqarası baxır və onlar festivallara zəif əsərlər təqdim edirlər. Hazırda bizim teatrlarda ən çox tamaşaya qoyulan əsərlər klassik irsimizdəndir. Müasir yazarların da çoxunun əsərləri yüksək səviyyədə deyil ki, onları tamaşaya qoysunlar. Hesab edirəm ki, festivalların teatrlarımıza çox az fayda verməsinin səbəbi həm dramaturji materialların zəngin olmaması, həm də bəzi rejissorların zəif tamaşalar təqdim etməsidir. Mən özüm dəfələrlə festivallarda olmuşam, bu prosesi izləmişəm, yaxşı əsər, ümumiyyətlə, gözdən qaçmır. Bir də festivallara elə də irihəcmli əsərlər təqdim etmək düzgün deyil. Deyirsiniz ki, bu qədər festival keçirilir, amma nəticəsini görmürük. Bu da dediyim amillərlə bağlıdır" - deyə Z.Eldarqızı qeyd etdi.




***Yasin Qarayev:*** *"Gərək təqdim edilən əsər də, burada oynayan aktyorlar da, dramaturji material da, onun rejissura həlli də yüksək səviyyədə olsun ki, nəticə də qazanılsın"*

***Zülfiyyə Eldarqızı:*** *"Festivalların teatrlarımıza çox az fayda verməsinin səbəbi həm dramaturji materialların zəngin olmaması, həm də bəzi rejissorların zəif tamaşalar təqdim etməsidir"*

***İradə SARIYEVA***

№ 176 (4074) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

3 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# Günәş lәkәlәrinin sirri tapıldı



**Vaşinqton Universiteti daxilindә işlәrini davam etdirәn Tomas Carboi, әhatәli bir çalışma ilә Günәş modelini yaratmağı bacardı. Bu model üzәrindә araşdırmalar aparan Tomas Carboi, Günәş lәkәlәrinin sirrini tapdığını dedi.**

Dünya üzәrindәki hәyatın әn fundamental qaynaqlarından biri olan Günәşlә әlaqәdar araşdırmalar davam edir. Bundan çox uzun illәr әvvәl başlayan Günәşi araşdırma işlәri, indiki vaxtda da davam edir vә gәlәcәkdә dә davam edәcәk. Ancaq indi elm insanları, Günәşlә әlaqәdar bu günә qәdәr işıqlandırılmamış bir mövzunun üzәrindәki sirr pәrdәsini açdıqlarını düşünürlәr. Günәş lәkәlәri, Günәşin әn üst layında işıq kürә adı verilәn bir bölgәdә meydana gәlir. Maqnetik sahәnin müәyyәn bir bölgәdә sıxlaşmasına manеә törәdәn Günәş lәkәlәri, Günәşin üzәrindәki tünd rәngli adalar kimi görünür. Bunun sәbәbi isә istiliyinin daha aşağı olmasıdır. Hәmçinin elm insanları bu maraqlı strukturların hәr 11 ildә bir, daha çox meydana gәldiyini müәyyәn etmişdilәr. Ancaq bu günә qәdәr sirrini qoruyan bu meydana gәlmәlәrin sirri, elm adamlarının son araşdırmalar istiqamәtindә tapılmış haldadır. Model üzәrindә işlәr görәn elm adamları, Günәş lәkәlәrinin әslindә Günәşin әn üst layında meydana gәlmәdiyi nәticәsinә çatdılar. Elm adamlarına görә, Günәş lәkәlәri, işıq kürәsinin dәrhal altında iştirak edәn bir bölgәdә meydana gәlir. Mövzuyla әlaqәdar şәrhlәrdә olan Tomas Carboi, Günәş lәkәlәrinin 11 il boyunca böyüdüyünü vә sonra da partladığını açıqladı. Elm adamlarının bu araşdırması, Günәş lәkәlәrinin әslindә Günәşin әn üst layında yaranmadığını göstәrdi. Elm adamları indi isә, eyni modeli istifadә edәrәk Günәşin axıcı plazmasının necә bir bütün halında qaldığıyla әlaqәdar bir araşdırma aparır.



## Bakteriyaları analiz edәrәk okeanların nәbzini ölçәn robot...

**Okeanların vә dәnizlәrin sağlamlığı, hәm bizim üçün, hәm dә dünyadakı ümumi hәyat üçün olduqca әhәmiyyәtlidir. Əhәmiyyәti bu qәdәr böyük olan bir şeyi dә yaxşıca anlamaq, yaşanılan problemlәri anlayaraq hәll etmәyә çalışmaq da kritik әhәmiyyәtә malikdir. Elm adamları, bu mәqsәdlә kiçik robotlar yaratdı vә bu robotları okeanlara buraxdı.**

Okeanların dibindә yaşayan çox müxtәlif alt qruplardan biri dә bitki mәnşәli planktonlardır. Okeandakı qida zәncirinin tәmәlindә iştirak edәn bu canlılar, sudakı qida dövründәn mәsuldurlar vә fotosintez vasitәsiylә oksigen ifraz edir. Bitki mәnşәli planktonların vәzifәsi, bir çox araşdırmaçı üçün dә әhәmiyyәtli bir araşdırma sahәsidir. San-Dieqodakı Okean Elmi Skripps İnstitutudan araşdırmaçı Betani Kolodi bu barәdә belә danışdı: "Aldığımız hәr iki vahid oksigendәn biri okeandakı bitkilәrdәn gәlir vә çox vaxt insanlar, onları düşünmürlәr çünki onlar, mikroskopik ölçüdәdirlәr". Müәyyәn bir bölgәdәki qida axını, nәhәng alt böyümәsini qızışdıra bilәr. Suyun istiliyinin dәyişmәsi, yemәk qaynaqlarının paylanmasını dәyişdirә bilәr. Bütün bu dәyişikliklәrә cavab verә bilmәk üçün bitki mәnşәli planktonlara ehtiyac var, ancaq çox tәәssüf ki, onları bu işlәri edәrkәn müşahidә etmәk olduqca çәtindir. Bu nöqtәdә isә yeni yaradılan ESP robotlardan istifadә edildi. ESP robotları araşdırmaçıların bitki mәnşәli planktonların genlәrini araşdırmalarına da kömәkçi olurdu. Betani Kolodi, Allen vә Skrippsdәki hәmkarları ESP-in Kaliforniya sahilindәn yığdığı mәlumatları müxtәlif mikrob populyasiyalarının orada necә yaşadığını görmәk üçün analiz etdi. Axıntıda hәrәkәt edәn robot, eyni mikrob populyasiyasından hәr dörd saatda bir nümunә yığdı. Araşdırmaçılar ESP robotlarıyla әlaqәdar olaraq belә danışdı: "Mühәndislәr, elm adamları vә ekoloqların bir yerdә işlәyә bilmәsi üçün möcüzә bir fürsәtdir".

### Elan

Quliyeva Dilşad Əlişad qızına mәxsus JN-25148 H kod 00400026, 11.10.2005-ci il tarixli şәhadәtnamә itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şәhәri, Salyan şosesi 32 ünvanında 600 kv.m. torpaq sahәsi, Sәbayıl RİHB 23.05.2007-ci il tarixli, 1/3-498 saylı mәktub).

Mәmmәdov Zamin Faxrәt oğlu (JN-26916), İsmayılov Kәnan İnqilab oğlu (JN-26868), İsmayılova Hәqiqәt Qara qızı (JN-26942), İsmayılova Fatma İnqilab qızı (JN-26863) vә mәrhum Mәmmәdov İnqilab Faxrәt oğlundan vәrәsәliklә İsmayılova Hәqiqәt Qara qızı (JN-26879) adlarına torpağın mülkiyyәtә verilmәsinә dair şәhadәtnamәlәr itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şәhәri, Suraxanı rayonu, Zığ qәsәbәsi, Əmircan-Hövsan yolunun sağ tәrәfindә yerlәşәn torpaq sahәsi).

Davudova Nardan Hәmid qızına mәxsus, Çöl Şüvәlan bağlar massivindә yerlәşәn № 116 "c" bağın № 91 orderi itdiyi üçün etibarsız sayılır (AZE № 15070085 şәxsiyyәt vәsiqәsi, "ASAN 2").

Abbasova Nәrmin Elşad qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Günün ilk yarısı darıxdırıcı tәsir bağışlaya bilәr. Situasiyanın zahiri tәzahürlәrinә aldanmayın. Rutin işlәrlә mәşğul olun. Yasaqları pozanda, qadağalara mәhәl qoymayanda sonuclar vә fәsadları düşünün.



**Buğa** - Günün ilk yarısında sizi çox iş gözlәyir. İşdә vә ailәdә "lokomotiv" rolunu oynamalı olacaqsınız. Yeni hәdәf, fәrqli mәqsәd әla stimuldur. Köhnә planlardan birini reallaşdırmaq üçün әlverişli zamandır.



**Əkizlәr** - Asan gәlir etmәk ideyalarını unudun. İşlәr artır, fәaliyyәtdә gәrginlik motivlәri çoxalır. İdeyaların reallaşdırılması üçün maliyyә dәstәyi gәrәkdir. Ruhdan düşmәyin. Manеәlәr vә sәdlәr sizi passivlәşdirmәmәlidir.



**Xәrçәng** - Adi günlәrdәn biridir. Heç bir ekstraordinar hadisә baş vermәyәcәk. Ev işlәri ilә mәşğul olmaq mümkündür. Alış-verişdә bәdxәrclik etmәyin. Qәfil tәklif olarsa, gәlir istisna deyilsә, razılaşın.



**Şir** - Yaxın әtrafınızdakı insanların maraqlarını nәzәrә alın. Aqressiv vә eqoist olmayın. Tәrәfdaşlarla әlaqәlәrdә müvazinәti pozmayın. Qarşılıqlı güzәştlәrә hazır olun. Bәzi imkanlara vә imtiyazlara görә mübarizә aparmanız gәrәkdir.



**Qız** - Günün ilk yarısını qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün fayda ilә keçirә bilәrsiniz. Konkret material nәticәyә yönәlmiş iş xüsusilә yaxşı sonuclar verәcәk. Abstrakt mәnfәәtlә maraqlanmayın.



**Tәrәzi** - Haqqınızda deyilәnlәrlә yanaşı, situasiya ilә bağlı dәyәrlәndirmәlәrin yer aldığı sözlәrә qulaq asın. Əslә gözlәmәdiyiniz mәnbәdәn xәbәr alacaqsınız. Şayiәlәr sürәtlә yayılacaq. Gәrәkli mәlumatı әldә etmәk çәtindir.



**Əqrәb** - Başqalarının maraqları vә mәnafelәri arasında qala bilәrsiniz. Ailәdә vә ya işdәki situasiyanın girovuna çevrilmәyin. Hadisәlәrә tәsir imkanlarına malik insan sizә manеәlәr yaratmağa çalışacaq.



**Oxatan** - Rutin mәsәlәlәrin çoxluğu sizi әsas mәqsәddәn yayındırmamalıdır. Maddi mәqamlar, xidmәti öhdәliklәr çox vaxt aparacaq. Yaxın dostlardan biri vә ya qohumun yardıma ehtiyacı ola bilәr.



**Oğlaq** - Maliyyә mәsәlәlәrindә tәmkinli davranın, emosiyalara uyaraq düşünülmәmiş qәrarlar vermәyin. Mәnasız eksperimentlәr aparmayın, bütün qüvvәnizi vә diqqәtinizi real mәqsәdlәrә yönәldin.



**Dolça** - Mәqsәdlәrinizә çatmaq üçün xeyli çәtinliklәri dәf etmәli olacaqsınız. Sәdlәr vә manеәlәrin sayı artacaq. Texniki, xidmәti vә mәişәt problemlәrinin sayı artacaq. İradlar çoxalacaq, tәlәbat güclәnәcәk.



**Balıqlar** - İkinci dәrәcәli işlәrә diqqәtiniz yayılmasın. Cari işlәrlә mәşğul olun, rutin mәsәlәlәrdәn usanmayın. İşlәr nә qәdәr artırsa, ödәniş vә gәlirlәrlә bağlı problemlәr sizi daha çox narahat edәcәk.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Dünyada ilk dәfә insulin daşıması üçün drondan istifadә edildi

**Arkanzasda olan Tibb Elmlәri Universitetinin araşdırmaçıları diabet dәrmanı daşıyan bir dron yaratdı. UAMS-dә hazırlanmış dron, sağlamlıq sahәsindә istifadә edilәn ilk dron oldu.**

Bu işi, dr. Spiridola Maraka rәhbәrliyi altında bir qrup reallaşdırdı. Maraka vә qrupunun yaratdığı dәrman daşıyan dron, keçәn cümә günü tәqdim edildi. İnsulin daşıyacaq dron fikri, keçdiyimiz il İrlandiyada meydana gәlәn şiddәtli fırtınadan sonra ortaya çıxdı. İrlandiyada reallaşan fırtına sәbәbiylә, bir çox insan sağlamlıq xidmәtlәri vә dәrmanlardan mәhrum qalmışdı. UAMS-dәki qrupda bu manеәnin necә öhdәsindәn gәlә bilinmәsi haqqına baş sındırdılar. Qrup, Şimal Atlantik Okeanı üzәrindә uçacaq bir dron üzәrindә işә başladı. Dron üzәrindә aparılan işlәrdәn sonra, diabet dәrmanı daşıyan bir dron İrlandiyadan Aran adalarına 20 dәqiqәlik bir uçuş reallaşdırdı. İşi reallaşdıran qrupda olan dr. Spiridola Maraka bu barәdә belә danışdı: "Bu işin sağlamlıq xidmәtinin çatdırılması baxımından böyük bir әhәmiyyәti olduğunu düşünürәm. Dron texnologiyası, xәstәlәrimizә kömәkçi olacaq sәrhәdsiz qabiliyyәtlәrә sahibdir".

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.